# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 35 (3451) Cümə axşamı / 8-14 sentyabr 2022-ci il Qiyməti 40 qəpik


# Erməni lobbisinin uğursuz "Qarabağ kartı"

***Azərbaycanın tarixi qələbəsindən keçən iki ilə yaxın müddət ərzində rəsmi Bakı hərbi-siyasi və diplomatik yollarla bölgədə davamlı sülhün əldə olunması istiqamətində ardıcıl addımlar atır. 44 günlük Vətən Müharibəsindəki zəfərdən sonra bölgədə yaradılan yeni reallıqlar çərçivəsində Azərbaycan ardıcıl şəkildə qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün səbr və qətiyyətlə addımlayır. Ermənistanla, artıq yeni sülh sazişinin imzalanması istiqamətində iki platformada - Rusiyanın və Avropa Birliyinin moderatorluğu ilə diplomatik danışıqlar aparılır. Bu danışıqlar rəsmi Bakının Ermənistana təklif etdiyi və İrəvanın qəbul etdiyini açıqladığı məlum "5 prinsip" əsasında təşkil olunur. Azərbaycanın sülh gündəliyində ATƏT-in Minsk qrupu, Dağlıq Qarabağ ərazi vahidi, Yuxarı Qarabağ iqtisadi zonasında rus sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə məskunlaşmış ermənilərə hansısa statusun verilməsi kimi məsələlər yoxdur. Bu mövqe ən ali səviyyədə Prezident İlham Əliyev tərəfindən dəfələrlə səsləndirilib.***




İstər Brüsseldə, istərsə də Moskvada keçirilən üçtərəfli danışıqların yekun bəyanatlarında da yuxarıda qeyd olunan məqamların heç biri əksini tapmayıb. Brüsseldə təşkil olunan son görüşdən sonra isə artıq Azərbaycan və Ermənistan arasında yaxın aylarda sülh sazişinin imzalanmasının mümkünlüyü intensiv müzakirə edilir. Bölgədəki yeni reallıqları qəbul etməyən, hər vəchlə artıq bitmiş sayılan Dağlıq Qarabağ münaqişəsini yenidən alovlandırmağa çalışan, separtizmi təşviq edən qüvvələrin təxribat xarakterli fəaliyyətləri səngimir. Söhbət 30 illik münaqişə dövründə Azərbaycanın ən böyük düşmənlərindən biri sayılan erməni lobbisindən gedir.

Brüssel danışıqlarından sonra bölgədə cərəyan edən hadisələrdə erməni lobbisinin fəaliyyəti açıq şəkildə hiss edilməkdədir: Sərhəddə atəşkəsin, demək olar, hər gün pozulması, Rusiyadakı erməni lobbisinin əsas simalarından sayılan milyarder Ruben Vardanyanın Xankəndinə gəlişi və oradan dünya ermənilərinə "Artsax naminə birləşmə çağırışı", separatçı rejimin "xarici işlər naziri" David Babayanın Vaşinqtona gözlənilən səfəri, Xankəndidə qondarma qurum tərəfindən "Artsaxın 100 illiyi"nin qeyd edilməsi, Xocalıda soyqırım törədilən rayonun ərazisində ermənilərə yeni yaşayış məskənlərinin salınması və s.

Yeri gəlmişkən, ABŞ Dövlət Departamenti qondarma Dağlıq Qarabağ Respublikasının "xarici işlər naziri" David Babayanın Vaşinqtona səfərini şərh edib. ABŞ Xarici İşlər Nazirliyinin nümayəndəsi APA-nın sorğusuna cavab olaraq bildirib ki, Dövlət Departamentinin bu şəxsin səfəri ilə heç bir əlaqəsi yoxdur. "Birləşmiş Ştatlar Dağlıq Qarabağ Respublikasını tanımır. Dövlət Departamentinin səfərlə heç bir əlaqəsi yoxdur", - departamentdən bildirib.

Dövlət Departamentinin sözçüsü Babayanın ABŞ-a hansı statusda səfər etdiyini soruşduqda, ABŞ qanunlarına uyğun olaraq viza məsələlərinin məxfi olduğunu qeyd edib.

"Ona görə də biz ayrı-ayrı hallara münasibət bildirə bilmərik. ABŞ-a səfər etmək üçün viza müraciətləri bütün qüvvədə olan qanunlara, o cümlədən İmmiqrasiya və Vətəndaşlıq Aktı (INA) və müvafiq qaydalara uyğun olaraq işlənir", - Dövlət Departamenti izah edib. ABŞ-dakı erməni diasporu bundan əvvəl David Babayanın sentyabrın 19-da Vaşinqtona səfər edəcəyi və rəsmi şəxslərlə görüşlər keçirəcəyi barədə məlumat yayıb. Göründüyü kimi, erməni lobbisi Vaşintondakı siyasi dairələrə təsir imkanlarından istifadə edərək sülh istiqamətində atılan addımları baltalamaq istəyir. Bu sıraya ABŞ səfirinin Şuşaya səfərdən imtinası, Dövlət Departamenitinin Azərbaycana qarşı son qərəzli hesabatını da qeyd edə bilərik. Vaşinqtonun Minsk Qrupunun varlığını sürdürməsi ilə bağlı bəyanatlarının da reallıqdan nə qədər uzaq olduğunu Ağ evdə oturanların özləri də çox yaxşı başa düşürlər.

> *"İstənilən halda Ermənistan Azərbaycanın şərtləri ilə sülh müqaviləsi imzalamağa məcbur olacaq*

Erməni diasporunun cinayətkar mahiyyətini özündə cəmləşdirən Ruben Vardanyana gəldikdə isə son məlumatlara əsasən o, "Qarabağ məsələsi ilə bağlı bir sıra beynəlxalq görüşlər keçirmək üçün" Fransaya səfərə gedib. "Mən müxtəlif ölkələrin nüfuzlu adamlarına Artsaxın (Qarabağın - red.) təhlükəsizliyini və inkişafını təmin etmək üçün hərəkətlərimizi izah etməyi vacib hesab edirəm. Bu gün bizim həm diaspordan, həm də Ermənistandan olan dostlarımızın bu xarici resursdan erməni xalqının maraqları naminə istifadə etməsi çox vacibdir. Fransada özəl tədbirdə iştirak edəcəyəm, həmçinin ümumi işimizə mühüm töhfə verə biləcək insanlarla görüşməyi planlaşdırıram", - deyə o yazıb.

Göründüyü kimi, erməni lobbisinin Avropadakı əsas mərkəzi sayılan Fransa erməniləri də separatizmin yenidən alovlanması üçün hər vasitəyə əl atırlar. Seçkilər dönəmində səs almaq üçün Cənubi Qafqazdakı davamlı sülhün əldə olunması üçün yaranan tarixi imkanı erməni lobbisinin maraqlarına qurban verən Paris də eynilə Vaşinqton kimi analoji siyasət aparır: Minsk Qrupunun vacibliyi iddiası, status, Şuşaya səfərdən imtina və s.

Vəziyyət o həddə çatıb ki, Ermənistanda siyasi qütbləşmə daha da dərinləşib. Azərbaycanla sülh sazişinin imzalanması məsələsində iki cəöhə yaranıb. Bununla belə, Paşinyan hökuməti həm iqtidarını qorumaq, həm də diaspora və Qərb dövlətləri ilə əlaqələrini qurtarmaq üçün lobbinin məlum oyunlarına bir fürsət kimi baxır. Sözdə sülhü dəstəklədiyini bəyan etsə də, əməldə yaşanan olaylara sükut nümayiş etdirir və yekun razılaşma qarşısındakı əngəllərin ortadan qaldırılması üçün siyasi iradə nümayiş etdirmir.

■ **Rusiyalı politoloq Yevgeni Mixaylovun da qənaətincə, erməni tərəfi Qarabağdan yapışmaqda davam edir, bununla da danışıqları ləngitməyə və ya hansısa güzəştlər qoparmağa çalışır: "Qarabağ Azərbaycandır.** Prezident İlham Əliyev bunu açıq şəkildə bildirdi. Muxtariyyət olmayacaq. Hamımızın xatırlayırıq ki, Rusiya da Azərbaycanın ərazi bütövlüyünü tanıdığı bəyan edib. İrəvan isə ABŞ və Fransanın erməni diasporu, Qərb dövlətlərinin elitasının təzyiqi altındadır. Amma istənilən halda Ermənistan Azərbaycanın şərtləri ilə sülh müqaviləsi imzalamağa məcbur olacaq".

Ekspertlərin qənaətincə, tarixi zəfərdən sonra işğal faktının aradan qalxması, erməni faşizminin belinin qırılması ilə yanaşı dünyadakı erməni lobbisinin ideoloji siyasəti ağır məğlubiyyətə uğrayıb. Son 30 ildə dünya ermənilərini qondarma "Böyük Ermənistan" və "soyqırımı" iddiaları ilə öz ətrafında birləşməyə çalışan diaspora, artıq Qarabağın işğaldan azad edilməsi və Azərbaycan-Türkiyə tandemi ilə İrəvanın münasibətlərinin normallaşması prosesinə start verilməsi ilə çox çətin duruma düşüb. Bu səbəbdən, hər vəchlə hər iki prosesə əngəl yaratmaq üçün bütün imkanlarını səfərbər edib.

Göründüyü kimi, zaman daraldıqca Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması ətrafında oynanılan siyasi oyunlar, təxribatlar da artmaqdadır. İrəvandan fərqli olaraq Azərbaycanın uzaqgörən siyasətə, güclü siyasi iradəyə malik siyasi lideri, müstəqil siyasi kursu, hərbi, iqtisadi, siyasi və diplomatik sahədə əzici üstünlüyü mövcuddur. Qarşıdakı müddətdə böyük maliyyə imkanlarına malik erməni lobbisinin bütün səylərinə baxmayaraq Azərbaycan qarşısına qoyduğa məqsədlərə istənilən yolla çatacaq.

*✍ Azad Əliyev*

---

**MÜSAHİB**

## Ermənilər Ukraynada qalibin kim olacağını gözləyirlər



**Asim Mollazadə,**
Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı

***Regionun geosiyasi mənzərəsi dünya düzəninin yeni reallıqları fonunda dəyişir. Bölgədəki vəziyyət Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsini həzm edə bilməyən region güclərinin ikilistandartlı yanaşmaları, eləcə də Qarabağı "yanar ocaq" kimi saxlamaq istəyənlərin "maşası" olan Ermənistan və onun havadarlarının diqtəsi, özbaşına davranışları ilə gərginliyini qoruyur. "Həftə içi"nə müsahibə verən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə maraqlı məqamlara diqqət çəkib.***

*Rusiyada olan erməni oliqarxlar Ermənistanda hakimiyyəti ələ keçirmək istəyirlər*

▸▸ Səh. 3

---

**MÜZAKİRƏ**



## Rusiyalı erməni milyarderin "Qarabağ sərgüzəştləri"

■ Qırıcılarımız Xankəndi səmaları üzərindən uçmalıdır

■ Ruben Vardanyanı çox qaranlıq tale gözləyir...

■ Bütün bunlar Moskvada təsdiq edilmiş bir təbliğat aksiyasıdır

■ Qarabağda əməliyyat tədbirləri ilə Vardanyanı ədalət mühakiməsinə təhvil verə biləcəyik

▸▸ Səh. 3

---

**GÜNÜN FOTOSU...**



"TurAz Qartalı-2022" birgə taktiki-uçuş təlimi

---

**GÜNÜN SİTATI**

*"Yeni məktəbli formaları ilə bağlı hansısa gərginlik var. Bəzən bu, məlumatsızlıq ucbatından, bəzən valideynlərin düz ünvanlara müraciət etməmələri səbəbindən baş verir"*



**Emin Əmrullayev,**
elm və təhsil naziri

---

**KARİKATURA**



Sərhəddə atışma var deyildikdə ağla gələn mənzərə

---

## Özəl reabilitasiya mərkəzləri

**Məlahət İbrahimqızı,**
millət vəkili

İstər Bakıda, istər bölgələrdə fəaliyyət göstərən bu tip özəl mərkəzlərin hər biri hərtərəfli şəkildə yoxlanılmalıdır.

▸▸ Səh. 6

---

**STATİSTİKA**



■ **Bakı əhalisinin əmək haqqı açıqlanıb. Bakı Şəhər Statistika İdarəsindən verilən məlumata görə, paytax əhalisinin maaşı artıb.**

Belə ki, 2022-ci ilin yanvar-iyun aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin müvafiq dövrünə nisbətən 13,1 faiz artaraq 1065,7 manat təşkil edib.

---



▸▸ Səh. 5

## Ermənistan atəşkəsi pozmaqla "sülhə" hazırlaşır

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 2 milyon manat vəsait ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Bakı şəhəri Suraxanı rayonunun Bülbülə, Əmircan, Hövsan, Qaraçuxur, Yeni Suraxanı və Zığ qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 4,6 milyon (dörd milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

***

**Prezident İlham Əliyev Zəngilan şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb.

***

**Prezident İlham Əliyev Kəlbəcər şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb.

***

**Prezident İlham Əliyev Şuşa şəhərində Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şuşa şəhərində yerləşən Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın (Sadıqcanın) yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsə ilkin olaraq 600,0 (altı yüz) min manat vəsait ayrılıb.

***

**"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

# Avropa Azərbaycana İtaliyadan baxdı

***Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya işgüzar səfəri son günlərin ən aktual mövzularından bii idi. Səfər çərçivəsində keçirilmiş görüşlər, Prezident İlham Əliyevin Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin təşkil etdiyi beynəlxalq forumdakı çıxışı zamanı səsləndirdiyi fikirlər və digər məqamlar beynəlxalm münasibətlərin çox kövrək və həssas bir dönəmini yaşadığı bir zamanda "Qoca Qitə"nin bütün diqqətini ölkəmizə yönəltdi.***



## Gündəm

Əslində Azərbaycan Prezidentinə, onun timsalında dövlətimizə göstərilən bu diqqət heç də təsadüfi deyil. Azərbaycan uzun illərdir ki, bir çox sahələrdə etibarlı tərəfdaş və bölgənin müstəqil siyasət yürüdən əsas oyunçusu kimi tanınır və qəbul edilir.

■ **Millət vəkili Azər Badamovun sözlərinə görə, Prezident İlham Əliyevin İtaliyaya səfəri bu ölkə ilə diplomatik əlaqələrin qurulmasının 30 illiyinə təsadüf edib:**

"Təbii ki, Azərbaycan Səfirliyinin yeni binasının açılması və səfirliyin nəzdində Mədəniyyət Mərkəzinin yaradılması ölkəmizin İtaliyada daha yaxından tanıdılmasına imkan verəcək. Hətta səfirliyin binasının açılışına dəvət olunmuş italiyalı qonaqlar Azərbaycan haqqında məlumatlara və mədəniyyət nümunələrinə baxdıqda heyranlıqlarını gizlətmir, tezliklə ölkəmizə səfər edəcəklərini bildirirdilər. Bakıda yaradılan İtaliya-Azərbaycan Universiteti ilə akademik əməkdaşlıq edəcək İtaliyanın beş aparıcı universiteti ilə sənədlərin mübadiləsi də tarixi hadisədir", - deputat qeyd edib.



**Azər Badamov,**
millət vəkili

Onun sözlərinə görə, İtaliyada işgüzar səfər çərçivəsində Prezident İlham Əliyevin "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən Çernobbio şəhərində hər il keçirilən beynəlxalq foruma əsas qonaq kimi dəvət olunması beynəlxalq arenada dövlətimizin başçısına verilən böyük dəyərin göstəricisidir. Bu beyin mərkəzinin fəxri qonaqları aparıcı ölkələrin nüfuzlu dövlət başçıları olurlar. Forumda geniş nitqlə çıxış edən Prezident İlham Əliyev auditoriyanı Azərbaycanın gələcəyə baxışları ilə bağlı məlumatlandırmaqla yanaşı, moderatorun beynəlxalq gündəlik üçün əhəmiyyət daşıyan suallarını da əhatəli və diplomatik cavablandırmaqla dünya səviyyəli Lider olduğunu bir daha göstərdi.



**Zaur Məmmədov,**
politoloq

"Rusiya-Ukrayna müharibəsi nəticəsində dünya düzənində yaranmış yeni reallıq ölkələrin beynəlxalq gündəliyinə yenidən baxılmasını aktuallaşdırıb. Prezident İlham Əliyevin apardığı xarici siyasət Azərbaycanın milli maraqlarına tam cavab verməklə regionun böyük ölkələri ilə əməkdaşlığı dərinləşdirib və müstəqilliyimizin möhkəmlənməsine yol açıb. Azərbaycanın geosiyasi baxışları və yerləşdiyi coğrafiyasının imkanlarını genişləndirərək beynəlxalq əməkdaşlığa təqdim olunması həm qonşularımız, həm də Asiya və Avropa ölkələri üçün əhəmiyyətimizi artırıb. Dövlətimizin başçısının balanslaşdırılmış müstəqil siyasəti heç bir ölkənin milli maraqlarına zidd olmamaqla yanaşı, Azərbaycanın beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə və



**Vüqar Bayramov,**
millət vəkili

siyasi müstəqilliyimizin əsasında dayanan iqtisadi müstəqilliyimizin gücləndməsinə yol açır", - A.Badamov əlavə edib.

■ **Politoloq Zaur Məmmədov hafta.az-a açıqlamasında deyib: "Biz bilirik ki, Ukraynadakı müharibə fonunda Qərb ölkələrinin vətəndaşları bir qorxu içərisindədir. Bu qorxu təbii qazla bağlı qiymətlərin çox böyük sıçrayışla artımı və enerji sektorunda baş verən inqilabi addımların insanların həyatına təsiri ilə bağlıdır".**

Politoloq dövlət başçısının Forum çərçivəsində Avropanın enerji təhlükəsizliyi, dünyanın enerji bazarında baş verənlər, Azərbaycanın bu istiqamətdə ata biləcəyi addımlar haqqında çıxışını xatırladaraq, ilk növbədə bu çıxışın İtaliyadakı ekspertlər və vətəndaşlar tərəfindən diqqətlə izlənilməsini təsadüfi saymayıb:

"Təbii qazın qiymətinin artması insanları narahat edir. Təsadüfi deyil ki, son 6 ay ərzində 10 ölkə Azərbaycana müraciət edərək Azərbaycandan təbii qazın satışını istəyib.

Cənab Prezident İtaliyadakı çıxışı zamanı bizim TAP, TANAP layihəsi çərçivəsində, eyni zamanda təbii qazla bağlı Bolqarıstan marşrutu istiqamətində ata biləcəyimiz addımları qeyd edib. Eyni zamanda burda Avropa və Azərbaycan arasında iqtisadi dialoqun davam etməsinin vacibliyi vurğulanıb. Sözügedən məsələdə maliyyə məsələləri çox vacibdir. Avropa siyasi prinsipiallıq və ümumilikdə qətiyyətlilik nümayiş etdirməlidir. Bizim ehtiyatlar imkan verir ki, hətta TAP layihəsini 20 milyard kub metrə qədər artıraq və digər istiqamətlərdə də enerji təhlükəsizliyi üçün əməli adımlar ataq".

■ **Millət vəkili Vüqar Bayramovun sözlərinə görə isə İtaliya Azərbaycanın strateji müttəfiqlərindədir və adıçəkilən Avropa ölkəsini təmsil edən şirkətlər işğaldan azad olunan ərazilərimizin yenidən qurulmasında fəal iştirak edirlər:** "Azərbaycan İtaliya da daxil olmaqla, Avropanın enerji təhlükəsizliyinin formalaşmasına, neftə və eləcə də mavi qaza olan tələbatının ödənilməsinə birbaşa dəstək və töhfə verir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini İtaliya vasitəsilə Avropa bazarına çıxarır, deməli, İtaliya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq artıq uzun müddətdir ki, formalaşıb və bu sahədəki əməkdaşlıq inkişaf etməkdədir.

2020-ci ilin sonuncu ayından etbarən isə Azərbaycan İtaliyaya mavi qaz nəql edir. Son 1 ildə Azərbaycan Avropaya 15 milyard kub metrə yaxın mavi qaz ixrac edib. TAP layihəsi vasitəsilə Avropaya birinci mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə 20 milyard kubmetr mavi qaz nəql ediləcək. Nəql ediləcək mavi qazın əhəmiyyətli hissəsi məhz İtaliya bazarına ixrac ediləcək ki, bu da təbii ki, İtaliya və Azərbaycan arasında iqtisadi münasibətlərin növbəti dövrdə də inkişaf edəcəyindən xəbər verir.

İki ölkə arasındakı ticarət dövriyyəsində də kəskin artımlar var. Azərbaycan ilə İtaliya arasındakı ümumi ticarət dövriyyəsi 2020-ci ildə 4 milyard 568 milyon dollar olmuşdu. Ötən il isə ölkələr arasında ticarət dövriyyəsi 2 dəfədən çox artaraq 9 milyard 663 milyon dollara çatıb. 2021-ci ildə Azərbaycanın İtaliyaya ixracatı 9 milyard 243 milyon, idxalı isə 419.7 miyon dollar olub. Bu ilin ilk 6 ayında isə 9 milyard 116 milyon dollarlıq ticarət qeydə alınıb.

İtaliyaya 8 milyard 972 milyon dollar məhsul ixrac edən ölkəmiz sözügedən Avropa ölkəsindən 144.3 milyon dollarlıq idxal həyata keçirib. Bu ilin ilk 8 ayında isə 11 milyard dollarlıq ticarət dövriyyəsi qeydə alınıb. Bu isə o deməkdir ki, artıq bu ilin geridə qalan 8 ayında ticarət dövriyyəmiz ötən ilki ümumi rəqəmdən daha çox olub.

*"*

*Rusiya-Ukrayna müharibəsi nəticəsində dünya düzənində yaranmış yeni reallıq ölkələrin beynəlxalq gündəliyinə yenidən baxılmasını aktuallaşdırıb*

*Son 6 ay ərzində 10 ölkə Azərbaycana müraciət edərək Azərbaycandan təbii qazın satışını istəyib*

*İtaliya Azərbaycan üçün qeyri-neft ixracatı baxımından yeni bazarlardan biri hesab olunur*

Azərbaycan, eyni zamanda, qeyri-neft məhsullarını İtaliya bazarına çıxarmaq niyyətindədir. İtaliya Azərbaycan üçün qeyri-neft ixracatı baxımından yeni bazarlardan biri hesab olunur. Təbii ki, Azərbaycanın qeyri-neft məhsullarının yeni bazarlara ixrac edilməsi və ölkəyə daxil olan valyuta həcminin artırılması baxımından vacibdir. Bu mənada, İtaliya növbəti dövrlərdə də Azərbaycan üçün əsas ticarət tərəfdaşı olaraq qalacaq və iki ölkə arasındakı strateji tərəfdaşlıq münasibətləri imkan verəcək ki, Azərbaycanın iş adamları, qeyri-neft sektorunda çalışan sahibkarlar bu strateji münasibətlərin inkişaf etməsindən faydalana bilsinlər".

*✍ Azad Əliyev*

# "Xankəndinə nəzarəti ələ almalıyıq..."

**10 Noyabr üçtərəfli sazişinə əsasən ermənilər ərazilərimizi bir güllə atmadan boşaldandan sonra, həmin yerlərdə mina partlayışları oldu. Araşdırmalar sübut etdi ki, minalar Rusiya sülhməramlılarının nəzarət zonasında olan ərazilərə sonradan basdırılıb. Yeni Laçın yolunda belə halların olması ehtimalı varmı?**

"Həftə içi"nin bu və digər məsələlərlə bağlı suallarını cavablandıran ADP sədri Sərdar Cəlaloğlunun sözlərinə görə, İran, Rusiya Laçın dəhlizi vasitəsilə Qarabağa hərbi xarakterli yüklər daşıyırdı. Azərbaycan dəfələrlə bu faktı aşkar etdi. Bu gün isə yeni yolun çəkilişi ilə bağlı vəziyyət dəyişib:

"Əvvəla, onu deyim ki, Laçın dəhlizi istiqamətində kifayət qədər böyük ərazi sülhməramlıların nəzarətində qalmışdı. Həmin dəhliz coğrafi yerləşiminə görə elə yerlərdən keçirdi ki, Azərbaycan nə Laçına, nə də Şuşaya gedən yola ciddi nəzarət edə bilmirdi. Həmin dəhlizdən ermənilər də istədikləri kimi gəlib-gedirdilər. İndi çəkilən alternativ yol ermənilərin Qarabağa gedişgəlişinin müşahidəsini asanlaşdıran yerdən salınıb. İndi yeni yolda Azərbaycan hökuməti radar nəzarət sistemi quraşdırıb. Digər tərəfdən o yolun başlanğıcında Azərbaycan gömrük və sərhəd xidməti olacaqsa, Laçın dəhlizində baş verən təxribat hadisələri



*"*

*Laçın dəhlizi istiqamətində kifayət qədər böyük ərazi sülhməramlıların nəzarətində qalmışdı*

orda olmayacaq. Artıq növbəti vəzifəmiz Qarabağda separatizmi aradan qaldırmaq olmalıdır. Xankəndiyə nəzarəti ələ almalıyıq".

*✍ Tahirə Qafarlı*

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib



**Asim Mollazadə,**
Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı

***Regionun geosiyasi mənzərəsi dünya düzəninin yeni reallıqları fonunda dəyişir. Bölgədəki vəziyyət Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsini həzm edə bilməyən region güclərinin ikilistandartlı yanaşmaları, eləcə də Qarabağı "yanar ocaq" kimi saxlamaq istəyənlərin "maşası" olan Ermənistan və onun havadarlarının diqtəsi, özbaşına davranışları ilə gərginliyini qoruyur. "Həftə içi"nə müsahibə verən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə maraqlı məqamlara diqqət çəkib.***

# Ermənilər Ukraynada qalibin kim olacağını gözləyirlər

***- Uzun illər Rusiyada yaşayan, müxtəlif qanunsuz yollarla sərvət sahibi olan erməninin Rusiyadan imtina edib Qarabağa köçməyə həvəsləndirən nədir?***

- Mənə belə gəlir ki, Rusiya zamanında Gürcüstanda həyata keçirmək istədiyi addımları indi Ermənistanda tətbiq etmək istəyir. Əslində, Ruben Vardanyanın kimliyi və məqsədi bunu açıq şəkildə biruzə verir. Məlumdur ki, Vardanyan yeni bir partiya yaradıb və o, Ermənistanın rəhbərliyində təmsil olunmaq iddiasını ortaya qoyur.

İkinci amil onunla bağlıdır ki, Avropada aparılan araşdırmalar nəticəsində bu şəxsin çox müəmmalı vəsaitlərə malik olduğu bilinir. İstisna deyil ki, Vardanyana qarşı ən azı Avropa tərəfindən sanksiyalar da tətbiq oluna bilər. Çox qəribə bir vəziyyət yaranıb: ermənilər istisna olmaqla Amerika Birləşmiş Ştatlarında bir sıra Rusiya oliqarxlarına qarşı sanksiyalar tətbiq olunub. Görünən odur ki, güclü diasporaları olan ölkələrdə heç bir erməni sanksiyalarla üzləşməyib.

Mən Vardanyan və onun kimi bəzi oliqarxların Ermənistan siyasətində istifadə edilməsi niyyətlərinin olmasını istisna etmirəm. Heç şübhəsiz ki, proseslərin necə inkişaf edəcəyini izləmək lazımdır. Hazırda düşünürəm ki, bu barədə birinci növbədə Ermənistan hakimiyyəti düşünməlidir. Keçmişdə Ermənistanın siyasi meydanında olan hərbi cinayətkarlar tək yerli əhalinin inamını deyil, artıq Rusiyada da inamlarını itiriblər.

Ona görə də ortaya yeni simalar çıxarılır və görünən odur ki, artıq bu istiqamətdə işlər gedir. Məsələn, Ermənistanın keçmiş baş naziri Karapetyanı da qaytarırlar, Ruben Vardanyan gəlir. Yəni Rusiyada olan erməni oliqarxları Ermənistanda hakimiyyəti ələ keçirmək barədə düşünürlər və bu işlər artıq başlanıb. Bir daha qeyd edim ki, onların bu addımlarını izləyən sülh istəyən, cinayətkarlardan, müharibələrdən yorulmuş erməni vətəndaşları ayıq olmalıdırlar.

Azərbaycan tərəfi isə təcili bölgədə sülhün bərqərar olmasını istəyir. Bizə bölgədə sabitlik, kommunikasiyaların açılması lazımdır. Azərbaycan hər bir zaman beynəlxalq hüquq normalarına riayət edir və səbrlə sülh istiqamətində bizə yardım edə bilən ölkələri, qurumları axtarır. Əslində, Azərbaycanın məqsədi regionu tərəfdaşlıq, sabitlik bölgəsinə çevirməkdir. Bütün bunlarla yanaşı, qoy dünyanın nüfuzlu təşkilatları bu barədə narahat olsunlar, düşünsünlər. Məsələn, Avropa Birliyi sülhün yaradılması ilə bağlı vasitəçilik istiqamətində təşəbbüslərlə çıxış edir, digər tərəfdən Amerika Birləşmiş Ştatları oliqarx qrupların fəaliyyətinə diqqətli yanaşmaqla, həm də öz milli maraqlarını müdafiə etməlidir.

Yəni, Azərbaycan sülh istiqamətində özünün təkliflərini verib, sülh sazişinin hazırlanması istiqamətində iş gedir və düşünürəm, sülh sazişi imzalanandan sonra bir çox mətləbllər dünyaya bir daha aydın olacaq.

***- Brüssel görüşündə əldə olunan razılaşmalardan sonra bu günlərdə Ermənistan rəhbərliyinin, xarici işlər nazirinin bəyanatları sülhün gündəmdə olması ilə bağlı Paşinyanın çıxışlarını alt-üst etdi. Ermənistanın Brüssel görüşündən sonra bu cür davranışları nəyə hesablanır və Rusiya bu prosesdə nə dərəcədə iştirakçıdır?***

- Əvvəla, qeyd edim ki, Ermənistanla bağlı məsələlərdə elə bir sahə yoxdur ki, Rusiyanın orada iştirakı olmasın.

Digər tərəfdən, Ermənistan hazırda danışıqlar prosesini bütün imkanları çərçivəsində uzatmaq istəyir. Məndə elə bir təsəvvür yaranıb ki, onlar Ukraynadakı hadisələri izləyirlər.

Ermənilər Ukraynada qalibin kim olacağını gözləyirlər. Məhz ondan sonra öz qərarlarının istiqamətini müəyyənləşdirib, yeni səmtə doğu gedəcəklər, yaxud da elə köhnə istiqamətdə qalacaqlar.

Hələlik Brüsseldə əldə olunan razılaşmaya əsasən 1 ay ərzində sülh sazişi üçün sənədlər hazırlanmalıdır. Bildiyimizə görə, xarici işlər nazirlərinin görüşü olacaq və ermənilərin hansı mövqedə olduqları da o vaxt aydınlaşacaq. Ən azı, biz bu prosesin inkişaf tempini səbrlə izləyirik.

*"Rusiyada olan erməni oliqarxlar Ermənistanda hakimiyyəti ələ keçirmək istəyirlər*

Regionada gedən hər bir prosesdən Azərbaycanın xəbəri var. Azərbaycanın sadə vətəndaşlarının hər bir məsələdən xəbəri var. Dünya son vaxtlar şəffaflaşıb, məlumatlar sürətə yayılır. Mən sadəcə olaraq Azərbaycanın bu proseslərdə düzgün mövqe tutduğunu görürəm.

Azərbaycanın məhz əməkdaşlıq, tərəfdaşlıq üzərində apardığı siyasət ən düzgün siyasətdir. Həmçinin Azərbaycanın hər bir varianta hazır olması istiqamətində də işlər gedir. Qeyd edim ki, bu günlərdə Azərbaycanda böyük hərbi sənaye ilə bağlı olan prosesərdə qoşularaq yeni hərbi sənaye silahların alınmasına dair qərar verib və ən nüfuzlu ölkələr, şirkətlər bu istiqamətdə Azərbaycanla əməkdaşlıq etməyə hazırdırlar. Silahlı qüvvələrimizi, Dəmir Yumruğumuzu hər zaman hazır saxlamalıyıq. Eyni zamanda da sülh istiqamətində bütün zəruri addımları atmalıyıq. Mənə belə gəlir ki, Brüssel görüşü böyük bir potensiala malikdir.

***- Ermənilər Laçın, Kəlbəcər istiqamətində sərhəddə atəşkəsi pozurlar. Atəşkəs hansı halda pozulmaya bilər. Bunun üçün hansı maraqlar ödənilməlidir?***

- Bu cür təxribatlar davam edəcək. Bunu kim edir, niyə edir, yaxud, Ermənistanda vahid bir rəhbərlik varmı, yoxmu, bütün bunlar hamısı cavabını gözləyən suallardır. Açığı, Ermənistanın özünün müstəqil dövlət olduğu və gələcəkdə mövcudluğunun davam edə biləcəyi də şübhələr yaradır. Bu istiqamətə yalnız bir məsələni qeyd edə bilərəm: erməni təxribatları hələ davam edəcək. Ermənistanda vahid komanda şəklində hərəkət edən hakimiyyət yoxdur. Bir daha təkrar edirəm, bu dövlətin mövcudluğu ciddi suallar doğurur. Ermənistan və oranın əhalisi üçün yeganə xilas yolu Azərbaycana, Türkiyəyə qarşı ərazi iddialarına son qoyub, sülh sazişini imzalayıb kommunikasiyaları açıb normal bir dövlətə çevrilməkdir. Ermənistanın xilasını mən bunda görürəm. Hesab edirəm, Brüssel danışıqlarından sonra sərhəddə baş verən təxribatlar və sərsəm erməni bəyanatlarının Avropa İttifaqının bu prosesdə vasitəçi kimi imicinin aşağı salınması məsələsi istisnadır. Avropa İttifaqının vasitəçiliyi çox qüvvələrin xoşuna gəlmir.

***- Dünyada özünü bir qütb kimi görən və bunun üçün mübarizə aparan böyük dövlətlər - ABŞ, Rusiya, Türkiyə, Avropa İttifaqının bir-biri ilə rəqabəti Azərbaycanın öz hədəflərinə çatması üçün qarşıda hansı maneəni yaradır və gərginliyi ilə müşahidə olunan proseslər ölkəmiz üçün nə ilə nəticələnə bilər?***

- Kiçik ölkələr həmişə böyük imperiyaların illərlə davam edən rəqabətinin qurbanı olub. Gənc Azərbaycan dövləti öz tarixində ilk dəfə olaraq siyasi, informasiya sahələrində kifayət qədər müdafiə oluna bildi.

Dəmir Yumruğa malik olan dövlət kimi özünü qoruyub, torpaqlarını işğaldan azad etdi. Bu gün Azərbaycan böyük güclərlə birgə normal tərəfdaşlıq və əməkdaşlıq sahəsində siyasətini yürüdür ki, dövlətimizin inkişafını, xalqımızın rifahını qoruya bilək. Dediyiniz o rəqabət min illərdir davam edir və belə də olacaq.

Bu gün həmin güc dövlətlərin yenə də ATƏT-in Minsk Qrupu məsələsinə ümid etməsi, onlar üçün regiona nəzarət vasitəsidir. Bu qurumun reanimasiyasına mən inanmıram. Minsk qrupunun həmsədrləri bir-biri ilə elə münasibətlərə malikdirlər ki, bu missiyanı canlandırmağa özlərinin də imkanları çatmaz. Uzağa getməyək, bu yaxınlarda ABŞ, Fransa kimi dövlətlərin Azərbaycandakı səfirlərinin Şuşaya səfərdən imtina etməsi kimi təsiretmə elementlərinin arxasında dövlətlərin maraqları yox, həmin dövlətlərdə çox güclü nüfuza malik olan diaspora və lobbi qruplarının fəaliyyətləri əsas rol oynayır, amma hər şey dəyişə bilər.

***- Asim müəllim, hər zaman belə bir sual yaranır ki, biz niyə xarici ölkələrdə həmin dövlətlərin siyasi hakimiyyətinə, seçkilərə təsir edəcək lobbi, diaspora fəaliyyətini qura bilmirik. Səbəb nədir?***

- Azərbaycan diasporası öz işinin gücləndirilməsi istiqamətində prosesə yeni başlayıb. Xatırladım ki, erməni lobbisi, diasporası 100 ildən artıqdır ki, xarici ölkələrdə öz fəaliyyətini qurub və həm böyük maliyyə imkanlarına malikdir, həm də təşkilatlana bilirlər.

Başqa bir amil azərbaycanlıların öz xarakterinə bağlıdır. Biz öz torpağımıza daha çox bağllıyıq. Başqa ölkələrə gedib orada yaşamaq, fəaliyyət göstərməkdə o qədər də maraqlı deyilik. Düşünürəm ki, proses başlanıb, xaricdə də müəyyən təşkilatlanma işləri gedir. Çox istərdim, Türkiyədə də bu işlər güclənsin. Əməkdaşlığımızın nəticəsində diasporalarımız formalaşsın.

Təəssüflə qeyd etməliyəmn ki, biz heç Türkiyədə diasporamızı formalaşdıra bilməmişik. Düşünürəm, artıq lobbimizin formalaşması ilə bağlı da addımlar atılır. 44 günlük müharibədə də biz gördük ki, dünyada yaşayan azərbaycanlılar oyandılar. Bu istiqamətdə bir təcrübə toplanıb, müəyyən addımlar atılır. Ümidvaram ki, bu istiqamətdə düzgün qurulan işlərin nəticəsi olacaq.

***Tahirə Qafarlı***

# Rusiyalı erməni milyarderin "Qarabağ sərgüzəştləri"

***Brüssel razılaşmasından sonra erməni hərbi təxribatları daha da güclənib, Laçın, Kəlbəcər istiqamətində atəşkəs pozulur, ermənilər qondarma rejimin ildönümünü qeyd edir. Maraqlı budur ki, Ermənistan rəhbərliyi də bu tədbirdə iştirak edir. Bu ərəfədə Rusiyada yaşayan, erməniəsilli rusiyalı iş adamı Ruben Vardanyan Rusiya vətəndaşlığından imtina etmək və Qarabağa köçmək barədə qərar verdiyini deyib.***



## Təhlil

O, bunun riskli addım olduğunu da vurğulayıb və qərarını bu sözlə əsaslandırıb: "Qarabağa köçmək qərarına gəldim. Bu gün Qarabağ erməniləri ağır psixoloji böhran yaşayır, sabaha inamları yoxdur. Onlar özlərini tərk edilmiş və unudulmuş hiss edirlər. Düşünürəm, 2020-ci il müharibəsindən sonra biz bütün dünya erməniləri onların yanında olmağa borcluyuq. Biz onlara tək simvolik olaraq deyil, həm də əməli işlərdə kömək etməliyik".

Erməni milyarderin Qarabağa gəlişi, heç şübhəsiz ki, 30 illik işğal dövründə dağıtdıqlarını düzəltmək deyil. Brüssel görüşündən sonra ermənilərin atəşkəsi pozmaqla təxribatçı addımlarının baş qaldırması sırasında belə bir müəmmalı köçün də baş tutması əslində Azərbaycana və sülh danışıqlarına qarşı böyük təhdid kimi dəyərləndirilməlidir. Bir erməninin Azərbaycanın icazəsi olmadan onun ərazilərində məskunlaşmaq cəhdi qeyri-qanuni olmaqla bərabər, heç bir çərçivəyə sığmır.

■ **Siyasi şərhçi Azər Hüseynov hafta.az-a açıqlamasında bildirib ki, rusiyalı milyarderin Qarabağa gəlməsi, əslində, Moskvanın başqa bir formatda gəlişidir.**

"Əlbəttə ki, cinayətdir, hüquq pozuntusudur. Buna diplomatik dillə etiraz edilməlidir. Praktiki olaraq onun və onun kimilərinin Qarabağa gəlişini heç etmək üçün güc göstərişinə ehtiyac var. Qırıcılarımız üçrəngli tüstülərlə Xankəndi səmaları üzərindən uçmalıdır. Daha sonra Türkiyə ilə birgə regionda hərbi siyasi konfiqurasiyalar təhlil edilməlidir. Rusiya hakimiyyətinə yaxın olduğu düşünülən diaspor imkanlarını işə salınmalıdır. Yumşaq və sərt güc sinergetik istifadə edilməlidir".

■ **Milli Məclisin deputatı Elman Nəsirov hafta.az-a açıqlamasında bildirib ki, postmüharibə dövrünün həllini gözləyən məsələlərinin tənzimlənməsi istiqamətində intensiv addımların atıldığı bir reallıqda iki proses diqqətdən yayınmır.**

"Birinci proses odur ki, bir tərəfdən Ermənistan baş naziri Brüsselə gedib, Azərbaycanla sülh müqaviləsi imzalamağa razı olduğunu bildirir və Azərbaycan tərəfinin irəli sürdüyü 5 baza prinsipinu qəbul etdiyini ifadə edir. Digər tərəfdən, Qarabağda atəşkəsin intensiv şəkildə pozulması halları baş verməkdədir. İkinci proses rusiyalı erməniməşəli oliqarx Ruben Vardanyanın birdən-birə Rusiya vətəndaşlığından çıxıb Qarabağa - Xankəndinə gəlmək niyyətini ortaya qoymasıdır. Vardanyan eyni zamanda özü kimi varlı erməniləri də Qarabağa gəlməyə dəvət edir. Varidatı 1 milyard dolları keçən bu erməninin Xankəndidə nə işi var? "O, hansı məqsədlə gəlir, hansı uzağa gedən niyyətlər gizlənir?" sualları bu gün aktualdır...

Onun fikrincə, Ruben vardanyanlar və onun arxasında duran qüvvələr bununla sübut etmək istəyirlər ki, münaqişə bitməyib, həllini gözləyən məsələlər var və bu baxımdan da erməni oliqarxı Qarabağa gəlib, onlar üçün status məsələsi əsasdır.

Göstərmək istəyirlər ki, Ruben Vardanyan kimi adamlar da statusu müəyyən edilmiş ərazinin inkişafına vəsait qoymağa başlayıblar. Deputat hesab edir ki, Vardanyan ehtiyat variantlardan biri kimi də nəzərdən keçirdilə bilər.

"Təbii ki, Köçəryan və Sarkisyanın Qarabağ klanının üzvləri hərbi canilər, erməni xalqının başına oyunlar açan məxluqlar olaraq yenidən hakimiyyətə gəlmələri sıfıra bərabərdir. Eyni zamanda, Paşinyanın davranışları və atdığ addımlar heç də Rusiyada birmənalı qarşılanmır. Bu mənada hesab edirəm ki, Vardanyan Rusiyada siyasi dairələr üçün ehtiyat variantı ola bilər. Onun maliyyə imkanlarından istifadə edib Qarabağdakı ermənilərin rəğbətini qazanmağa nail olmaq istəyirlər. Gələcəkdə separatçı rejimin tör-töküntülərini onun əvəz etməsi ehtimalı yarana bilər. Hətta uzaq perspektivdə onu Paşinyanın yerinə gətirməklə bağlı planlar da ola bilər. Hər halda burda təsadüf axatarmaq lazım deyil".

*"Qırıcılarımız Xankəndi səmaları üzərindən uçmalıdır*

*Ruben Vardanyanı çox qaranlıq tale gözləyir...*

*Bütün bunlar Moskvada təsdiq edilmiş bir təbliğat aksiyasıdır*

*Qarabağda əməliyyat tədbirləri ilə Vardanyanı ədalət mühakiməsinə təhvil verə biləcəyik*

E.Nəsirov bəyan edib ki, Qarabağ Azərbaycan əraziləridir və üçüncü tərəflərin gəlib orada iştirak etməsi, bərpa işləri ilə məşğul olması qəbuledilməzdir, qanunaziddir.

"Vardanyanın Qarabağa gəlişi də qeyri-qanuni hərəkətdir və onun üzərində məsuliyyət yaradır. Hesab edirəm ki, Azərbaycanın müvafiq dövlət orqanları öz intensiv işini aparmalıdır. Tezliklə bu hadisələrlə bağlı Azərbaycan parlamentariləri də öz mövqelərini ifadə edəcəklər. Ruben Vardanyanın Qarabağa gəlməsi birbaşa cinayət əməlidir və onun ordakı fəaliyyəti də Azərbaycan dövləti və dövlətçiliyi əleyhinə yönəlmiş bir fəaliyyət olacaq. Ruben Vardanyanı çox mürəkkəb, qaranlıq tale gözləyir, bunu unutmasın!..".

■ **Politoloq Rəşad Bayramov bildirir ki, Rusiya vətəndaşlığından imtina edərək Qarabağa köçdüyünü deyən Vardanyan Rusiya sülhmərmlılarının nəzarətində olan Azərbaycan ərazilərində "artsax-"ın təhlükəsizliyi və inkişafı fondunun yaratdığını elan edib və bunu Xocavənd rayonundan bəyan edib.**

Vardanyan sülhməramlıların mandatını "artsax" xalqının təhlükəsizliyini, öz gücünü təmin edənədək uzadılmasından danışır. Bütün dünyanı, dünya ermənilərini "artsax" uğrunda mübarizəyə səsləməklə yanaşı, Çinin, ABŞ və Fransanın danışıqlarda əsas rol oynamasının vacibliyini qeyd edir.

Politoloq bəyan edir ki, öz varidatını Rusiyada qazanmış belə bir adamın Rusiya vətəndaşlığından imtina etməsi bir sıra mətləblərdən xəbər verir. Onun fikrincə, erməniəsilli bu milyarderin İlham Əliyev və Paşinyanın Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə keçirilən görüşündən sonra Xocavənddə peyda olması heç də təsadüfi deyil. Bütün bunlar İrəvanla - Bakı arasında siyasi dialoqun pozulmasına yönəlmiş, planlaşdırılmış və Moskvada təsdiq edilmiş bir təbliğat aksiyasıdır.

R.Bayramov bildirir ki, Vardanyanın həm də öz varidatını qorumağa cəhd edir. Politoloq hesab edir ki, çoxsaylı fırıldaqlar, "çirkli pullar"ın yuyulması ilə bağlı ittihamlara baxmayaraq, Vardanyan indiyədək Qərbin sanksiyalarına tuş gəlməyib.

"Düşünür ki, Rusiyanın Ukraynaya təcavüzü fonunda gec-tez onun da adı qara siyahıya salınacaq. Ona görə də Vardanyan qazandığı pulların bir qismini ABŞ və Avropada saxlayan rusiyalı milyarderdir.

Ona görə də Qarabağa köçmək istəyi ilə həm də faktiki olaraq öz varidatını qorumağa cəhd göstərir. Ona görə də bəyanatında ABŞ və Fransanın Qarabağ danışıqlarında iştirakının vacibliyini, regionda daha çox təsir imkanlarına malik olmalı olduğunu deməsi də bu istiqamətdə ehtimalları gücləndirir. Faktiki olaraq Rusiya Vardanyandan ehtiyat kartı kimi istifadə edir".

Politoloq hesab edir ki, Vardanyanın və onun kimi ermənilərin sülhməramlıların nəzarəti altında olan ərazilərimizə girişinin məhdudlaşdırılması ilə bağlı ciddi addımlar atılmalı və onun fəaliyyəti ümumiyyətlə nəzarətə götürülməlidir.

■ **Milli Məclisin deputatı Bəhruz Məhərrəmov hafta.az-a açıqlamasında bildirib ki, erməni milyarder, 30 illik işğal və təcavüzü maliyyələşdirənlərdən biri - Ruben Vardanyanın Rusiya vətəndaşlığından imtina etməsinin yalnız bir səbəbi var: bu saxtakar və xain erməni Qərbin Moskvaya tətbiq etdiyi sanksiyalardan qorunmaq istəyir. Deputatın fikrincə, Vardanyan eyni zamanda bu işi elə görmək istəyir ki, həm əmlakını sığortalasın, həm də Ermənistanda siyasi xal qazansın.**

"Sirr deyil ki, bu ölkədə hazırda ictimai-siyasi vəziyyət ağırdır və manipulyasiyalarla siyasi liderə çevilə bilmək şansları yüksəkdir. Vardanyan da bir daşla iki quş vurmaq istəyərək, həm də siyasi fiqura transformasiya olunmaq arzusundadır.

Ruben Rusiya vətəndaşlığından imtina etməklə özü də bilmədən addımları öz millətinin əsl xislətini, həqiqi üzünü ortaya çıxarır. Bu mənada Vardanyanın illərdir, milyardlar qazandığı Rusiyadan belə çətin bir dönəmdə üz döndərməsi Rusiya və ruslar üçün xəbərdarlıq olmalıdır. Rus ictimaiyyəti artıq başa düşməlidir ki, ermənilərin əsl siması budur, tarix boyu həmişə xəyanət içində olublar və əgər Qərbin sanksiyaları dərinləşəcəksə, bu ölkədə imkan və resurslara malik nə qədər erməni varsa hamısı tək-tək Rusiyaya xəyanət edəcək.

Vardanyan milyardlar qazanmış adamdır, ağılsız deyil, o yaxşı anlayır ki, yaxın dövrlərdə Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə Bakı öz suveren hüquqlarını tam təmin edəcək. Bu mənada, Xankəndi Vardanyan üçün biznesini Avropaya daşımaqdan ötrü uğurlu keçid məkanıdır. Təbii ki, indiki məqamda Moskvadan varidatını birbaşa Qərbə daşıması Ruben üçün son olardı, amma Xankəndidən köç Qərbin separatizmə dəstək verən dairələrindən və erməni diasporundan yaşıl işıq almaq üçün ideal variantdır. Ruben bir şeyi də düşünməlidir ki, 30 illik işğal və təcavüzə açıq dəstək verməklə o, bizim üçün hərbi cinayətlərə imza atmış canidir. Eyni zamanda, beynəlxalq hüquqla tanınan ərazilərimizə izinsiz gəlməklə, o, yeni bir cinayət törətmiş olur. İndi bütün bunların fonunda Qarabağ İqtisadi Rayonuna gəlməklə o, bizim güc strukturlarının işini asanlaşdırır, yəni artıq interpola müraciət edib, xaricdə onu axtarmadan öz ərazimizdə, Qarabağda əməliyyat tədbirləri ilə Vardanyanı ədalət mühakiməsinə təhvil verə biləcəyik".

***Tahirə Qafarlı***

# Azərbaycan dünya birliyinə uğurla inteqrasiya edir

## Layihə

***Prezident İlham Əliyevin rəhbərlik etdiyi müstəqil Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Azərbaycan dövləti beynəlxalq şəraitdən asılı olmayaraq yerləşdiyi bölgədə baş verən proseslərin gedişinə ciddi təsir göstərir. Dünyanın aparıcı dövlətləri və nüfuzlu təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Azərbaycanın regional və qlobal müstəvidə enerji təhlükəsizliyinə töhfə verdiyi bəllidir və bu bütün dünyada çox yüksək qiymətləndirilir.***



Tarixə nəzər salsaq görərik ki, XXI əsrin əvvəllərindən başlayaraq xarici siyasətdə baş verən müsbət dinamik dəyişikliklər Azərbaycanın 2012-2013-cü illərdə BMT TŞ-nin qeyri-daimi üzvü olmasının real zəminini hazırladı. 2016-cı ildə isə Azərbaycan BMT Baş Məclisində keçirilmiş səsvermədə iştirak edən 184 üzv dövlətdən 176-nın səsini qazandı. Bu, 2017-2019-cu illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməyə imkan yaratdı. 2011-ci ildən Azərbaycan Qoşulmama Hərəkatının üzvü olmaqla yanaşı 2019-2022-ci illərdə quruma uğurlu sədrliyi nəticəsində Azərbaycanın sədrlik müddəti yekdilliklə bir il daha uzadılmışdır. Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən yüksək qiymətdir. Eyni zamanda, Prezident İlham Əliyevin təşəbbüsünə uyğun olaraq Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin yaradılması ölkəmizin BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında həyata keçirdiyi məhsuldar fəaliyyətin nəticəsidir.

■ **Mövzu ilə bağlı Milli Məclisin deputatı Tahir Rzayev bizimlə söhbətində bildirib ki, ölkəmiz regionda və dünyada sabitlik və təhlükəsizliyin təmin olunması, əməkdaşlığın gücləndirilməsi ilə əlaqədar mühüm təşəbbüslərlə çıxış edir:** "Bu gün müstəqil dövlətlərin, müstəqil siyasət yürüdən ölkələrindünya birliyinə inteqrasiya olunması dövrün tələbidir. Düşünürəm ki, hər bir müstəqil dövlət bu sahədə uğurlu addımlarını atmalıdır. Azərbaycan da dünyanın bir hissəsidir. Və sözsüz ki, dünya ölkələri, dünya birliyi ilə sıx əməkdaşlıq etmədən Azərbaycan həqiqətlərini, reallıqlarını dünyaya çatdırmaq mümkün deyil. Azərbaycan Prezidenti cənab İlham Əliyevin hakimiyyətə gəldiyi ilk illərdə bu məsələ diqqət mərkəzində olub və dünya ölkələri ilə sıx əməkdaşlıq etmək, dünya birliyinin nüfuzlu üzvlərindən biri kimi tanınmaq dövlətimizin başçısının qarşıya qoyduğu ən başlıca vəzifələrdən biri olub. Bu gün qürurla qeyd etmək olar ki, Azərbaycan artıq dünya birliyi ölkələri arasında öz sözünü deyən, seçilən və bəşəri ideyaları həyata keçirən, dünya ölkələrində baş verən hadisələrə ciddi yanaşan, reaksiya verən və müəyyən problemlərin aradan qaldırılmasına dəstək göstərən bir ölkəyə çevrilib. Azərbaycan BMT-nin üzvüdür və qürürverici haldır ki, Azərbaycan dövləti az bir müddətdə BMT Təhlükəsizlik Şurasının sayılıb-seçilən üzvlərindən biri olmaqla həmin Şuraya 2 il sədrlik etdi. Bu, əlbəttə ki, dünyada ən böyük təşkilatdır. Belə təşkilatın bir parçası olmaq, həmin təşkilatda

> *Azərbaycan dünyanın ən böyük hərəkatlarından biri olan Qoşulmama Hərəkatı ilə də fəal əməkdaşlıq edir*

iştirak etmək və müzakirə olunan məsələlərə münasibət bildirmək və sədrliyi həyata keçirmək hər bir ölkəyə nəsib olmur. Bu dövrdə də Azərbaycan dövləti dünyada sülhün, əmin-əmanlığın, bərabərliyin, azadlığın təminatçısı kimi çıxış etdi, öz sözünü dünyaya çatdırdı".

Millət vəkili, həmçinin qeyd edib ki, bu gün Azərbaycan dünyanın ən böyük hərəkatlarından biri olan Qoşulmama Hərəkatı ilə də fəal əməkdaşlıq edir: "Azərbaycan bu hərəkatla sıx əməkdaşlığı, bu təşkilata dəstəyi ilə dünyaya bir nümunədir. Bu gün Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edir və sədrlik dövründə Azərbaycan Prezidenti dünyada mövcud olan bir çox problemlərin həllində, xüsusilə pandemiyaya qarşı mübarizədə çox böyük fəallıq və bəşəri duyğular ifadə etdi. Dünyada bu xəstəliyin qarşısının alınmasında Azərbaycan dövləti dünya ölkələrinə öz maddi, mənəvi dəstəyini göstərmiş oldu. Bundan başqa, hazırda ölkəmiz İslam Əməkdaşlıq Təşkilatında da çox fəal təmsil olunur və bu tədbirlərin bir çoxunun Azərbaycanda keçirilməsi onu göstərir ki, əməkdaşlığımız gündən-günə möhkəmlənir. Azərbaycan həm də Avropa Şurasının üzvüdür. Eyni zamanda, Avropa Şurası Parlament Assambleyasında fəal iş aparır. Bu da Azərbaycana yeni dvidendlər, yeni uğurlar qazandırır. Son illər Azərbaycanın Avropa İttifaqı ilə də münasibətləri yaxşılaşdırılmaqdadır. Avropa İttifaqı ölkələri rəhbərlərinin Azərbaycana gəlməsi və İttifaqın Azərbaycanda keçirilən tədbirlərə önəm verməsi, bir çox hallarda Azərbaycanın haqq-ədalət mübarizəsinin dəs-



**Tahir Rzayev,**
Milli Məclisin deputatı

təklənməsi göstərir ki, münasibətlər ildən-ilə yüksələn xətt üzrə inkişaf edir. Bundan sonra da bu xətt davam etdiriləcəkdir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan və Ermənistan əlaqələrinin möhkəmləndirilməsi, mehriban qonşuluq siyasətinin yaradılması istiqamətində həyata keçirdiyi tədbirlər və son dövrdə təşkil olunan bu görüşlər göstərir ki, Azərbaycan Avropa İttifaqının sayılıb-seçilən ölkələrindən biri kimi qiymətləndirilir. Digər tərəfdən, Azərbaycan Prezidentinin xarici ölkələrə səfərləri müntəzəm xarakter daşıyır. Elə bu yaxınlarda dövlətimiz başçısı Avropa İttifaqının təşəbbüsü ilə Brüsseldə oldu və Ermənistanın baş naziri ilə görüş keçirdi. Bu görüşdə sülh sazişinin bağlanılması, nəqliyyat xəttinin açılması, sərhədlərin delimitasiyası kimi olduqca vacib məsələlər müzakirə olundu. Əlbəttə ki, bu da Azərbaycanın milli maraqlarına cavab verir və həmin görüşdən dərhal sonra Azərbaycan Prezidenti bizim ən yaxın tərəfdaşımız olan İtaliyada oldu.

Burada çoxsaylı görüşlər keçirdi və həmin görüşdə, eləcə də iştirak etdiyi beynəlxalq forumda dünyada enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolundan bəhs etdi. Avropada enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər, qarşıya qoyulan vəzifələr bu gün dünya ölkələri tərəfindən yüksək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

qiymətləndirilir. Sözsüz ki, Azərbaycan Prezidentinin tapşırıqları əsasında xarici ölkələrlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində Milli Məclis, eləcə də Xarici İşlər Nazirliyi, digər dövlət orqanları fəal şəkildə iş aparırlar. Bu Azərbaycanın dünyada tanıdılması, haqq-ədalət mübarizəsinin dəstəklənməsi baxımından olduqca faydalıdır və görülən işlər də sübut edir ki, həqiqətən qurulan əlaqələr, inteqrasiyanın genişləndirilməsi Azərbaycana faydalar verir, ölkəmizin uğurlarını möhkəmləndirir".

■ **Mövzu ilə bağlı millət vəkili Müşfiq Cəfərov isə qeyd edib ki, Azərbaycan dünya birliyinə inteqrasiya, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsində həmişə maraqlı olub: "İnteqrasiya suveren dövlətlərin daxili və xarici siyasətinə təsir edən, xalqların taleyində dönüş nöqtələrinə təkan verən, dünya inkişafının başlıca amillərindəndir.**

Artıq müasir dünyada bütün ölkələri əhatə edən inteqrasiya amili onun suveren milli dövlətə təsirinin nəticələri, yaxın və uzaq ölkələrlə əməkdaşlığın qarşılıqlı faydası olduqca yüksəkdir. Müstəqil Azərbaycan dövlətinin yaradıcısı, ümummilli lider Heydər Əliyevin yeni dünya düzənində regional və qlobal inteqrasiyanın strateji xəttini milli inkişafın prioritet istiqamətlərindən biri kimi önə çəkməsi, onu ardıcıl olaraq həyata keçirməsi, bu yöndə aparılan bütün fəaliyyətini müstəqilliyin möhkəmləndirilməsi və Azərbaycanın dünyada özünütəsdiqinə nail olması bu gün hamı tərəfindən qəbul olunmuş gerçəklikdir. Dövlət müstəqilliyinin ilk illərindən etibarən dünya birliyinə inteqrasiya istiqamətində kompleks tədbirlər həyata keçirən ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasətinin prinsipial məqamları Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. Azərbaycan dövlətinin Avropaya və Avrasiyaya inteqrasiyasının siyasi prinsip və əsasları Ulu Öndər tərəfindən qoyulub. Hazırda isə ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Son onilliklərdə geniş vüsət alan, getdikcə daha da intensivləşən inteqrasiya, qloballaşma və regional əməkdaşlıq forumları Azərbaycan üçün aktuallıq kəsb edir. Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyası, onun regional inteqrasiya beynəlxalq əməkdaşlıqda bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsi gənc bir dövlət üçün çox böyük nailiyyətdir. Müasir dövrdə siyasi və iqtisadi inteqrasiya prosesləri, dövlətlərin regional birlik və ittifaqlarının formalaşması geniş vüsət almışdır. İndi Azərbaycan bir çox beynəlxalq nüfuzlu təşkilatların etibarlı partnyorudur. Bütün bunlar qabaqcıl siyasətin nəticədir. Mən deyərdim ki, bu gün Azərbaycan dövləti dünya birliyinə inteqrasiyanı milli inkişafın prioritet istiqamətlərindən biri hesab edir. Ölkəmizdə dövlətin xarici siyasətinin ən mühüm istiqamətlərindən birini, şübhəsiz, dünya ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq təşkil edir".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Böyük Britaniyanın yeni "dəmir ledi"si

***Nəhayət, gözlənilən xəbər gəldi - Böyük Britaniyanda Mühafizəkarlar Partiyasının lideri vəzifəsinə və təbii ki, yeni Baş naziri postuna Liz Truss (Meri Elizabet Truss) seçildi. Krallığın sonuncu xarici işlər naziri olan xanım Truss siyasətdə sərt davranışı, xüsusilə də Ukraynanı işğal etmək üçün müharibə aparan Rusiyaya qarşı çox sərt mövqeyi ilə seçilir. Liz Truss kimdir, onun həyat axarına nəzər salaq:***

## Aktual

Liz Truss 26 iyul 1975-ci ildə İngiltərənin Oksford şəhərində Con Kennet və Priskilla Meri Truss (əvvəlki soyadı Qrasbi) ailəsində doğulub - 47 yaşı var. Kiçik yaşlarından o, ikinci adı ilə tanınır. Atası Lids Universitetində riyaziyyat üzrə fəxri professordur, anası Bolton Məktəbində müəllimə olub.

Liz 4 yaşında olarkən ailəsi Şotlandiyanın Renfrevşir əyalətinin Peysli şəhərinə köçür və 1979-cu ildən 1985-ci ilədək orada yaşayırlar. Truss ilk təhsilini Qərb İbtidai Məktəbində alıb və sonradan dərslərinə Roundhay məktəbində davam edir. Daha sonra Oksforddakı Merton Kollecində Fəlsəfə, Siyasət və İqtisadiyyat üzrə təhsil alır.

Truss gənclik illərində liberal-demokratlarla birlikdə olub. O, hətta Oksford Universitetində təhsil alarkən Liberal Demokrat Gənclər və Tələbələrin (LDYS) milli icraiyyə komitəsinin üzvü idi. Liberal-demokrat olaraq çalışdığı müddətdə Truss sirrin leqallaşdırılmasını və monarxiyanın ləğvini dəstəkləyib və 1994-cü ildə Cinayət Ədaləti və İctimai Asayiş Aktına qarşı kampaniya aparıb.

Truss 1996-cı ildə Mühafizəkarlar Partiyasına qoşulub. Əmək fəaliyyətinə gəldikdə, Truss



1996-2000-ci illərdə Shell-də çalışıb və paralel olaraq Chartered Management Accountant (ACMA) ixtisasına yiyələnib. 2000-ci ildə Truss Cable & Wireless şirkətində işə götürülüb və 2005-ci ildə işdən ayrılmadan əvvəl iqtisadi direktor vəzifəsinədək yüksəlib.

Siyasi fəaliyyətində çox uğurli olan xanım Truss 1998-2000-ci illərdə Levisham Deptford Mühafizəkarlar Assosiasiyasının sədri vəzifəsində çalışıb. O, 4 may 2006-cı ildə Qrinviç London Borough Şurası seçkilərində müşavir seçilib. 2001-ci il ümumi seçkilərində Truss, Əmək Partiyası üçün təhlükəsiz yer olan Qərbi Yorkşirdəki Hemsvorf seçki dairəsindən iştirak edib və prosesi ikinci yerdə başa vuraraq cəmi 4 faiz fərqlə Mühafizəkarların namizədinə uduzub. Sonradan mühafizəkarların lideri Devid Kameronun rəhbərliyi altında Truss partiyanın "A Siyahısı"na daxil edilən Truss 2009-cu ilin oktyabrında Cənub-Qərbi Norfolkda seçkilərə qatılıb və digər beş namizədə qarşı finalın ilk turunda səslərin səslərin 50 faizdən çoxunu alaraq qələbə çalır. Amma seçilındən az sonra, dairə assosiasiyasının bəzi üzvləri Trussun evli Mühafizəkar deputat Mark Fayeldlə əvvəlki münasibətini bildirmədiyi üçün onun mandat almasına etiraz edirlər, amma istədiklərinə nail olmurlar.Truss 2010-cu il may ayının 6-da parlamentdə işə başlayır.

O, 4 sentyabr 2012-ci ildə Truss Təhsil Departamentində Parlament Dövlət Katibinin müavini vəzifəsinə təyin edilir. 15 iyul 2014-cü ildə kabinet dəyişikliyində Truss Odven Patersonu əvəz edərək, Ətraf Mühit, Ərzaq və Kənd Məsələləri üzrə Dövlət Katibi postunu tutur. 14 iyul 2016-cı ildə isə o, Tereza Meyin kabinetində Ədliyyə üzrə Dövlət Katibi və Lord Kansler vəzifəsinə təyin edilir. Bununla da Truss hər iki vəzifəni tutan ilk qadın və ofisin min illik tarixində ilk qadın lord kansler olub. Bir ildən sonra - 11 iyun 2017-ci ildə keçirilmiş ümumi seçkilərdən sonra Truss Xəzinədarlığın Baş Katibi vəzifəsinə keçirilib.

Liz Truss 2019-cu ilin mayında Mühafizəkarlar Partiyasının liderliyinə namizəd ola biləcəyini bəyan etsə də, sonda Boris Consonu dəstəkləyib. Boris Conson Baş nazir olduqdan sonra Truss Beynəlxalq Ticarət üzrə Dövlət Katibi və Ticarət Şurasının sədri vəzifələrinə yüksəldilir. Amma Ember Raddın istefasından sonra Truss əlavə olaraq Qadınlar və Bərabərlik naziri də təyin edilir.

15 sentyabr 2021-ci ildə kabinet dəyişikliyi zamanı Conson Trussu Beynəlxalq Ticarət Katibliyindən Xarici, Birlik və İnkişaf Məsələləri üzrə Dövlət Katibliyinə yüksəldir və bununla da o, Marqaret Bekketdən sonra bu vəzifəni tutan ikinci qadın olur.

Truss Lord Frostun istefasından sonra - 2021-ci ilin dekabrında Britaniya Hökumətinin Aİ ilə baş müzakirəçisi təyin edilir. Xanım Trussun Baş nazir seçilincə Kabinetdə tutduğu son vəzifə isə Xarici işlər naziri postu olub. O, bu posta 2021-ci il sentyabrın 21-də seçilmişdi. 10 iyul 2022-ci ildə Truss Boris Consonu əvəz etmək üçün Mühafizəkarlar Partiyasının liderliyi seçkilərində iştirak etmək niyyətində olduğunu açıqlayır və budur, 5 sentyabr 2022-ci ildə Mühafizəkarların liderlik yarışında rəqibi Ruşi Sunakı məğlub edir. Onun sabah Kraliça tərəfindən Baş nazir vəzifəsinə təsdiq ediləcəyi gözlənilir.

İqtisadi liberal baxışları və azad ticarəti dəstəkləməsi ilə tanınan Truss Səudiyyə Ərəbistanını "müttəfiq" adlandırır, lakin münasibətlərdə məsafə saxlamağın lazım olduğunu qeyd edir. O, həmçinin Britaniyanın İsraildəki səfirliyini Təl-Əvivdən Qüdsə köçürülməsini nəzərdən keçirəcəyini də qeyd edir. Xanım Trussun Rusiya ilə yanaşı Çinə sərt mövqe nümayiş etdirməsinə baxmayaraq, Baş nazir seçildiyi təqdirdə Tayvana getməyəcəyini də bildirib.

Liz Truss Böyük Britaniya və Türkiyənin "Avropanın əsas NATO müttəfiqləri" olduğunu bildirib və "enerji, müdafiə və təhlükəsizlik" mövzusunda Böyük Britaniya-Türkiyə əməkdaşlığının dərinləşdirilməsinə çağırıb.

Liz Truss 2000-ci ildə mühasib yoldaşı Hugh Oleari ilə ailə qurub. Hazırda cütlüyün iki qızı var. Xanım Truss Xristian inancının və İngiltərə Kilsəsinin dəyərlərini bölüşdüyünü, amma dindar olmadığını qeyd edib...

***Vüsal***

## XƏBƏRİNİZ OLSUN...



■ İqtisadiyyat naziri Mikayıl Cabbarov Bolqarıstanın iqtisadiyyat və sənaye naziri Nikola Stoyanov ilə görüşüb. Bu barədə Mikayıl Cabbarov özünün "Facebook" səhifəsində məlumat verib."Ölkələrimiz arasında iqtisadi əlaqələrin təşviqi, investisiya imkanlarının müəyyənləşdirilməsi, nəqliyyat-tranzit sahəsində əməkdaşlıq və Bolqarıstana qaz tədarükü ilə bağlı məsələləri müzakirə etdik", - deyə o qeyd edib.

---

■ "Türkiyə ilə danışıqlar başlayıb". Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Şərq İqtisadi Forumunda çıxışı zamanı deyib. "Rusiyanın dəstəyi ilə Türkiyə ilə münasibətlərin normallaşmasına ümid edirik", - Paşinyan əlavə edib.

---

■ Avropa Komissiyası Ukrayna üçün əlavə 5 milyard avro yardım təklif edib. Bu barədə Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen "Twitter"də bildirib. O deyib ki, Ukraynadakı vəziyyət Aİ-nin dəstəyini tələb edir. "Bu gün Aİ Komissiyası ölkəyə əlavə 5 milyard avroluq makromaliyyə yardımı təklif edir", - Ursula von der Leyen qeyd edib.

---



■ Bu il 10 mindən artıq vətəndaşın tələbə kreditindən yararlanacağını proqnozlaşdırırıq. Bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. O qeyd edib ki, digər bir istiqamət Təhsilin İnkişafı Fondunun yaradılması idi.

---

■ Prezidentin müvafiq sərəncamına və Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən 2022-ci ilin may - iyul ayları üzrə yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə təxminən 448 min manata yaxın, qeyri-tibb işçilərinə isə 44 min manata yaxın müddətli əlavə ödənilib.

---

■ Çempionlar Liqasının ilk turu daha bir baş məşqçisinin istefası ilə nəticələnib. "Çelsi" Tomas Tuxeli istefaya göndərib. Zaqreb "Dinamo"suna məğlubiyyət almaniyalının London klubunda son matçı olub. Bu, Tuxelin "Çelsi"də həm də yubiley - 100-cü görüşü idi.

---



■ "Rusiya xüsusi hərbi əməliyyatın başlaması ilə heç nə itirməyib və itirmir". Bunu Rusiya Prezidenti Vladimir Putin Şərq İqtisadi Forumunda çıxışı zamanı deyib. Onun sözlərinə görə, Rusiya əməliyyatın başlamasından sonra suverenliyini möhkəmləndirib.

---

■ Türkiyənin "Qalatasaray" futbol klubu PSJ-də çıxış edən argentinalı hücumçu Mauro İkardini bir illik icarəyə götürüb. "Qalatasaray" İkardinin səkkiz milyon avroluq maaşının üç milyon avrosunu ödəyəcək.

# Ermənistan atəşkəsi pozmaqla "sülhə" hazırlaşır

*Ermənilər Laçın, Kəlbəcər istiqamətində atəşkəsi pozur. Ermənistanın sülh sazişinə dəvət olunduğu bütün danışıqlardan sonra bölgədə separatizm halları daha da alovlanır. Brüssel görüşündən sonra sərhəddə yaranan bu gərginlik nə ilə bağlıdır, səbəb nədir? Bu istiqamətdə hafta.az-a açıqlama verən hərbi, siyasi ekspertlər mühüm məqamlara diqqət çəkiblər.*



## Müzakirə

**■ Politoloq Elxan Şahinoğlu bildirib ki, Brüssel görüşündə sanki şifahi razılaşmalar əldə olunaraq, hətta 1 ay ərzində sülh sazişinin mətni ilə bağlı işçi qrupunun yaradılmasına qərar verilsə də, ermənilər öz havasına oynayır.**

*Belə təxribatlar varsa, bunun hesabını Paşinyandan soruşacağıq*

Politoloq bəyan edib ki, əgər Avropa İttifaqında belə bir razılaşma olmasına rəğmən ermənilər sərhəddə, Qarabağda atəşkəsi pozursa, bu, yenidən gərginliyin artmasına səbəb olacaq.

"Vəziyyət yenidən gərginləşə bilər. Bu təxribatları Ermənistan daxilində Paşinyan hakimiyyətini zəifləmək istəyənlər də həyata keçirə bilərdi. Bu bizi az narahat edir, çünki Ermənistanda baş nazir Paşinyandır və proseslərə məsuliyyəti o daşıyır. Belə təxribatlar varsa, bunun hesabını Paşinyandan soruşacağıq". Bu vəziyyəti danışıqlar, görüşlər ilə həll etmək mümkün olmadı. "Nə sərhədlər müəyyənləşir, nə erməni silahlıları çıxır, nə kommunikasiyalar açılır. Əksinə, Qarabağda növbəti erməni təxribatları ilə üzləşirik. Yeni yol sülhməramlıların nəzarətinə verildi və orada da əlisilahlı separatçılar peyda olub. Erməniəsilli milyarder köçüb gəlib Qarabağa. Bu, Azərbaycana qarşı yaxşı düşünülmüş növbəti təxribatdır. Yaxud Ermənistan Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryan qanunsuz olaraq Azərbaycan ərazisinə gəlir. Ordumuz yenə də öz sözünü deməli olacaq".

**■ Hərbi ekspert Elxan Şıxəliyev bildirir ki, "Qisas" əməliyyatından sonra, Brüssel görüşünə qədər, demək olar ki, bizim təmas xəttində ciddi atəşkəsin pozulması müşayiət olunmurdu.**

"Düşündük ki, qarşı tərəf "Qisas" əməliyyatından sonrakı mərhələdə ciddi nəticələr çıxarıb. Brüssel görüşündən sonrakı mərhələdə atəşkəsin pozulması halları intensivləşib". E.Şıxəliyev atəşkəsin intensivləşməsinin üç əsas səbəblə bağlantısının olduğunu düşünür: "Birincisi, Brüssel görüşündə Ermənistanın siyasətdə heç nə əldə edə bilməməsi, yəni Azərbaycanın təklif etdiyi 5 baza prinsipini qəbul etməsi və bunun da cəmiyyətə yansıması, yəni cəmiyyətin hərbdəki üzvləri bunun natamamlığını sahədə atəşkəsin pozulması ilə icra etməklə tamamlamaq istəyirlər.

*Nəticə etibarilə Qarabağda Azərbaycanın hərbi istəyi nə ilə bağlıdırsa, onunla da nəticələnəcək*

İkinci səbəb, Ermənistanda hazırda Köçəryan, Sarkisyan dövründən qalmış və 44 günlük müharibədə məğlub duruma düşmüş generalların öz vəzifələrini yerinə yetirməməsi üzərindən istintaq komissiyasının gəldiyi nəticələrə görə baş verən həbslərdir. Üçüncüsü, qeyri-qanuni hərbi birləşmələrin qondarma rejimin 100-cü ildönümü ilə bağlı keçirilən kütləvi aksiyaların separatçılara sirayət etməsidir". Hərbi ekspert bildirir ki, əslində, atəşkəsin pozulması hallarının çoxalığı cavabsız qalmır. Onun sözlərinə görə, əməliyyat şəraiti bizim bölmələrinin nəzarəti altındadır. Bizim praktikada var ki, atəşkəsin pozulması nöqtələri 3 avqust "Qisas" əməliyyatında nəzarətimizə keçdi və dolayısı ilə dislokasiya mövqelərimizə çevrildilər. Bunu ermənilər bilməlidirlər. Əslində, verəcəyimiz net mesaj 3 avqust əməliyyatından sonra bu idi. Bu, 1 ay müddətində davam etdi və görünür unudublar. Bu əməliyyatlar təkrar oluna bilər".

E.Şıxəliyev bildirir ki, qeyri-qanuni hərbi birləşmələrin yerləşdiyi ərazilərdə olan sülhməramlıların da öz vəzifələrini yerinə yetirməməsi, erməni milyonçusunun Rusiyadan imtina edib Qarabağa gəlməsi, bunun kimin layihəsi olması da Qarabağda olan separatçıların gələcək fəaliyyətinə dair ipuclarıdır.

"Əslində, Avropa, Rusiyayönümlü güclərin Qarabağ kartı üzərindən oyunlarının nəticələrini atəşkəsin pozulması ilə müşahidə edirik. Komanda briqadalarımız onların cavabını verəcək. Ermənistan Brüssel görüşündən sonra bəyanat verdi ki, saziş imzalanacaq. Düşünürəm ki, bu, ermənilərin Qarabağda son çırpıntılarıdır. Həmin isteriyanı yaşayırlar. Nəticə etibarilə Qarabağda Azərbaycanın hərbi istəyi nə ilə bağlıdırsa, onunla da nəticələnəcək". "Ərazilərimizdə olan separatçı, terrorçu qruplar tam olaraq zərərsizləşdirilməli və Azərbaycan Ordusu öz sərhədlərində birmənalı olaraq antiterror əməliyyatlarına tam və qətiyyətlə hazır olmalıdır".

**■ Bunu hafta.az-a hərbi təhlilçi Alp Arslan İmamqulu son bir neçə gün ərzində ermənilərin Laçın və Kəlbəcər istiqamətində növbəti dəfə atəşkəsi pozaraq təxribatlar yaratması ilə bağlı açıqlamasında bildirib.**

O, erməni təxribatlarının məhz Brüssel görüşlərindən sonra aktivləşməsini, həm də sülhməramlıları Qarabağda yer-

*Rusiya regionda sərhəddə delimitasiya prosesinin baş tutmasına və sülhün bölgədə hakim olmasına tərəfdar deyil*

ləşdirən Şimal qonşumuzun proseslərə xəbis müdaxiləsi kimi dəyərləndirib.

Hərbi təhlilçi hesab edir ki, zatən Rusiyanın Brüsseldə gedən görüşlərə birmənalı olaraq xoşməramlı yanaşması gözlənilmirdi: "Rusiya region və digər məsələlər uğrunda Qərblə arasında gedən mücadilədə Azərbaycan məsələlərinin Avropa İttifaqında gündəm olmasını heç cür həzm edə bilməzdi".

A.A.İmamqulu faktlara istinad edərək qeyd edir ki, Rusiya regionda sərhəddə delimitasiya prosesinin baş tutmasına və sülhün bölgədə hakim olmasına tərəfdar deyil: "Maraqları bölgədə istiqrarsızlıq və xaosun olmasına hədəflənib. Bu da ona Qafqazda öz varlığını sürdürə bilməsinə imkan verir. Rusiyanın özünü regionda saxlamaq üçün qurduğu məlum əngəllərdən başqa, Ermənistanda siyasi qruplar arasında çəkişmələr var. Bu da son dövrlərdə sərhəddə terror aktları ilə özünü büruzə verir. Bu o deməkdir ki, Azərbaycan təhlükəsizliyini təmin etmək üçün təktərəfli olsa da, alternativ addımlar atmağa hazır olmalıdır. Bundan əvvəl "Qisas" antiterror əməliyyatları icra olundu. Bu da bir sıra ərazilərimizin təhlükəsizliyini qarant altına aldı".

"Ermənistan bölgədə möhkəm və hərtərəfli sülhə razı olmadığını nümayiş etdirir. Buna görə də Brüsseldə əldə olunan razılaşmalardan sonra həm sərhədlərdə, həm də təmas xətlərində atəşkəsi pozmağa, müxtəlif təxribatlar törətməkdə davam edir. Sərhədlərdə təxribatlar və pozuculuq əməlləri Ermənistanın əldə olunmuş razılaşmaları sona qədər icra etməkdə iradə sahibi olmadığını göstərir".

**■ Bunu hafta.az-a siyasi şərhçi Aydın Quliyev bildirib. "Ona görə də Ermənistan tərəfi Brüssel görüşündəki razılaşmaların təbiətinə uyğun olmayan bəyanatlar verir, addımlar atır.**

Belə ki, Brüssel görüşündən sonra Ermənistanın baş naziri hökumətin iclasında bölgədə sülh gündəliyinin Ermənistan tərəfindən qəbul olunduğunu və bunun

*Ermənistan rəhbərliyinin yenə də həmsədrlik formatından danışması əldə olunmuş razılaşmalara qarşı təxribatdır*

icrası üçün yüksək iradənin vacibliyini bəyan etmişdi. Amma biz başqa hadisələrin şahidi oluruq". A.Quliyev bildirir ki, əgər Ermənistan sülh gündəliyini qəbul edibsə, onda Brüssel görüşündən dərhal sonra - sentyabrın 2-də Xankəndidə olan qondarma separatçı qurumun "müstəqillik günü"nü qeyd etməsi nə deməkdir?!

"Yaxud, əgər Ermənistan sülh gündəliyini qəbul edibsə, onda Ermənistanın Təhlükəsizlik Şurasının katibi Qriqoriyan qondarma qurumun qondarma müstəqillik günündə Qarabağa niyə səfər edirdi?! Niyə unudurlar ki, Ermənistanın dövlət məmurlarının, rəhbərlərinin Azərbaycandan icazəsiz istədikləri vaxt suveren ərazilərimizə gedib-gəlmələri sülh prosesi üçün dağıdıcı rol oynayır və bu, Azərbaycanın suveren hüquqlarına qəsd etməkdir.

Ermənistan sülh gündəmini necə qəbul edir ki, Brüssel görüşündən sonra Xarici İşlər Nazirliyi bəyanat yayır ki, "Qarabağ münaqişəsi həll olunmayıb", "Dağlıq Qarabağ" adında ərazi vahidi var. Guya Qarabağda 120 min erməni yaşayır. Ermənistan rəhbərliyi sərsəmləyir ki, həmin insanların statusu və təhlükəsizliyi müəyyənləşənədək "Dağlıq Qarabağ" ərazi vahidi kimi qalmalıdır. Eləcə də Ermənistanın xarici işlər naziri Brüssel görüşündən sonra bəyanat verir ki, Azərbaycanın təklif etdiyi sülh şərtləri gündəmin heç də bütün məsələlərini əhatə eləmir.

Biz Azərbaycanın təkliflərindən sonra ATƏT-in Minsk Qrupu ölkələrinə müraciət etmişik, bizim həmin müraciətimizdən sonra sülh gündəmi tamamlandı, və bundan sonra sülh danışıqları Minsk Qrupunun həmsədrləri çərçivəsində getməlidir". A.Quliyev bildirir ki, vasitəçilərin sonuncu dəfə Brüsseldə mətbuata açıqlamalarında "Dağlıq Qarabağ münaqişəsi", "status" və sair belə arxaik kəlmələrə bir işarə edilməsə də, Ermənistan rəhbərliyinin yenə də həmsədrlik formatından danışması əldə olunmuş razılaşmalara qarşı təxribatdır".

✍ *Tahirə Qafarlı*

## Müsahib

*"Ermənistan Qarabağ və Zəngəzurla bağlı taktikasını dəyişib. Onlar Zəngəzur mövzusundan ehtiyat edərək çalışırlar ki, bu prosesdən uzaqlaşsınlar. Ona görə də indi məqsəd odur ki, Ermənistan rəhbərliyi Qarabağ mövzusunda birbaşa iştirak etməsin. Və orada qalan separatçı ünsürləri maliyyə və digər cəhətdən hansısa fondlar-filanlar vasitəsilə erməni diasporu dəstəkləsin. Bundan sonra Ermənistan deyəcək ki, artıq mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, onun Qarabağla bağlı daxili işlərinə qarışmıram. Bu işlərə qarışan Ermənistan dövləti ilə birbaşa rəsmi əlaqəsi olmayan erməni fondlarıdır. Azərbaycan iradlarını onlara bildirsin".*



**Tofiq Zülfüqarov,**
keçmiş xarici işlər naziri

# "Qarabağda partizan müharibəsi təşkil edilə bilər..."

Bu fikirləri hafta.az-a açıqlamasında axırıncı Brüssel danışıqlarından sonrakı günlər Ermənistanın atəşkəsi pozmasının səbəblərindən bəhs edən keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov ifadə edib.

"Ancaq paralel olaraq Ermənistan çalışır ki, Rusiya hərbi kontingentinin müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində bir təmas xətti formalaşdırsın və oradakı ermənilərin partizan hərəkatı şəklində bir müqaviməti təşkil edilsin. Yəni bölgədə yeni silahlı qarşıdurma baş versin ki, nəticə də müəyyən vasitəçilər cəlb edərək hansısa bir siyasi proses başlatsınlar. Həmin siyasi proses də ermənilərə dəstək verən, onlara sponsorluq edən müəyyən dövlətlər birbaşa iştirak edərək Azərbaycana təzyiq göstərsinlər. Ssenari, təxminən, bu istiqamətdə inkişaf edir. Rusiyada fəaliyyət göstərən erməni milyarder Vardanyanın gəlişi də məhz bu taktikaya işarə edir. Burada həm də məqsəd ondan ibarətdir ki, Azərbaycan guya Ermənistanın iştirakı olmadan birbaşa Qarabağdakı ermənilərlə münaqişəyə çəkilsin və gələcəkdə oradakı separatçı-terrorçu qurumla danışıqlara məcbur edilsin. Yekun nəticədə bu yolla Azərbaycan torpaqlarındakı ermənilər üçün hansısa statusa nail olsunlar", - açıqlamasının davamında bunları deyən sabiq baş diplomat "Necə hesab edirsiniz, Ermənistan baş naziri N.Paşinyanın atəşkəsin bilərəkdən pozulmasından birbaşa xəbəri var, yoxsa bu da Rusiya, yaxud Qərblə bağlı hansısa qüvvələrin təxribatıdır?" sualını belə cavablandırıb: "Bilirsiniz, atəşkəsi pozmaqla bir növ görüntü yaratmaq istəyirlər ki, məsələ bizlik deyil. Hələ Qarabağdakı separatçı rejimlə İrəvandakı hakimiyyət arasında ciddi küskünlüyü də istisna etmirəm. Yəni Ermənistan hər bir vəchlə sübut etməyə çalışır ki, məsələ bizlik deyil, gedin məsələni Xankəndidəkilərlə həll edin. Paşinyanın birbaşa məlumatı olub-olmadığını demək çətindir, amma bütün hallarda o da başa düşür ki, indiki mərhələdə Ermənistan hökumətinin birbaşa Qarabağdakı separatçılara dəstəyi dünya tərəfindən qəbul olunmur. Bu, eyni zamanda, təhlükə yaradır ki, Azərbaycan buna cavab olaraq Zəngəzurda əməliyyat keçirsin. Yaxud ən azı Zəngəzur dəhlizinin daha ciddi şəkildə danışıqların mövzusuna çevirsin. Bilirsiniz ki, artıq bu istiqamətdə Azərbaycan tərəfinin bəyanatları da var".

*Ermənistan Qarabağ və Zəngəzurla bağlı taktikasını dəyişib*

"O ki qaldı konkret atəşkəsin pozulmasına, bu hərbi əməliyyatların göstəricisi kimi yox, ermənilər bunu daha çox partizan müharibəsinin bir elementi kimi göstərmək niyyətindədirlər. Yəni geniş əməliyyatlar yox, amma Qarabağdakı ermənilərin silahlı müqaviməti kimi təqdim etməyə çalışırlar", - deyən həmsöhbətimiz "Axı son günlər atəşkəs əsasən Ermənistan istiqamətindən pozulur" fikrinə də münasibət ifadə edib.

"Ola bilər ki, bu, müvəqqəti hal olsun. Mən gözləyirəm ki, əsas məsələlər sərhəddən Qarabağ istiqamətinə keçəcək... Yəni dediyim kimi, sülhməramlıların nəzarəti altında olan zonanın sərhədində ermənilərin bir təmas xətti yaratmaq niyyətləri olacaq", - deyə politoloq vurğulayıb.

✍ *Sultan*

# Ağalı kəndində bütün zəruri şərait yaradılıb

**Zəngilana qayıdışın ikinci mərhələsində ümumilikdə 25 ailənin məcburi köçkünlük həyatına son qoyulub. Sentyabrın 7-si 12 ailə olmaqla 63 sakinin doğma dədə-baba yurdlarına, Ağalı kəndinə köçü baş tutub. Sentyabrın 9-da isə daha 13 ailənin köçü baş tutacaq.**

Sakinləri kənd mərkəzində qarşılayan Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev doğma yurduna qayıtmaları münasibəti ilə onları təbrik edərək gözaydınlığı verib.

Sakinlərə kənd haqqında məlumat verilib və bildirilib ki, sakinlərin rifah içərisində yaşaması üçün kənddə bütün zəruri şərait yaradılıb. "Hər birinizi salamlayıram. Bu gün biz Ağalı kəndinə köçün 2-ci mərhələsini həyata keçiririk. Artıq növbəti 12 ailənin 63 üzvü kənddədir və bir neçə dəqiqədən sonra evləri ilə tanış olacaqlar, mənzillərin açarları onlara təhvil veriləcək.

Bildiyiniz kimi, iyulda 41 ailədən ibarət 201 nəfər artıq Ağalı kəndinə köçürülüb. Demək olar ki, bütün infrastruktur xidmətlər Ağalı kəndində mövcuddur - ASAN xidmət, poçt, bank, supermarket şəbəkələri və s. Yəqin, kəndin girişində də gördünüz, artıq yanacaqdoldurma məntəqəsi də fəaliyyət göstərir və əlbəttə ki, bütün bu fəaliyyət sahələrində bizim Ağalı kəndinin camaatı, sakinləri çalışırlar. Bu gün köçürülən sakinlərin arasında müəllimlərimiz də var və biz burada inşa edilən 360 nəfərlik məktəbdə son hazırlıq işləri aparırıq ki, şagirdlər yeni dərs ilində məktəbə gedə bilsinlər", - V.Hacıyev qeyd edib.

# Azərbaycan Türkiyədə neft axtaracaq



**Azərbaycan və Türkiyə SOCAR-ın Batman vilayətində neft ehtiyatlarının kəşfiyyatı ilə bağlı razılıq əldə edib.**

Bununla bağlı olaraq SOCAR-ın Kompleks qazma işləri müəssisəsinin nümayəndəsi Zəkiulla Kərimova Batman vilayətinin valisi Əkrəm Canalp arasında görüş keçirilib.

Qeyd olunur ki, SOCAR nümayəndələri valini gələcək kəşfiyyat işləri barədə məlumatlandırıb. Eyni zamanda, Z.Kərimov ilkin tədqiqat işləri ilə tanış olub. Qeyd edək ki, iki ölkə arasında əldə olunan razılaşmaya əsasən, Batman ərazisində bir sıra qazma işləri planlaşdırılır.

# Özəl reabilitasiya mərkəzləri

***Məlum olduğu kimi, ötən həftə Nizami rayonu ərazisində fəaliyyət göstərən “MehNur” loqopedik-defektoloji xidmət mərkəzində azyaşlıların tərbiyəçi tərəfindən döyülməsini əks etdirən video yayılıb. Görüntülərdən aydın olur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlara mərkəzin işçiləri tərəfindən işgəncə verilir. Videonun sosial şəbəkələrdə yayılmasından sonra aidiyyəti strukturlar tərəfindən mərkəzin psixoloqu və digər səlahiyyətli şəxsləri saxlanılıb. Nizami RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 133 (Əzab vermə) maddəsi ilə cinayət işi açılıb. Hadisə ilə bağlı saxlanılan mərkəzin direktoru Nuranə Hacızadə, psixoloq Aytac Kazımlı və direktor köməkçisi Səbinə Əliyarbəyli barəsində ev dustaqlığı qətimkan tədbirinin seçilməsi ilə əlaqədar istintaq orqanının vəsatətinə baxılıb.***

## Araşdırma

Nizami rayon Məhkəməsində hakim Nigar Qədirlinin sədrliyi ilə keçirilən proseslərdə vəsatət təmin edilib və hər üç şəxs barəsində 3 aylıq ev dustaqlığı qətimkan tədbiri seçilib və onlar vəzifədən kənarlaşdırılıblar.

Qeyd edək ki, baş vermiş hadisə bu tip özəl reabilitasiya mərkəzlərinə nəzarət məsələsini də aktuallaşdırıb. Sayları gün-gündən artan reabilitasiya mərkəzlərinin fiziki məhdudiyyətli uşaqlara xidmət etdiyini nəzərə alsaq, onlara nəzarətin olması vacibdir. Bəs görəsən bu tip mərkəzlərin fəaliyyətinə olan tələblər nədən ibarətdir? Bu cür özəl mərkəzlərə nəzarət hansı formada həyata keçirilir? Həmin qurumlar icazə və ya lisensiyanı hansı şərtlər daxilində əldə edirlər? Hazırda ölkədə bu tip mərkəzlərin sayı nə qədərdir?

Yeri gəlmişkən, müvafiq dövlət qurumlarının yaydığı açıqlamalardan belə görünür ki, hazırda bu tip mərkəzlərə nəzarət mexanizmi mövcud deyil. Məsələn, İqtisadiyyat Nazirliyi yaydığı açıqlamada bəyan edib ki, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununun 1 və 2 nömrəli əlavələrinə əsasən, lisenziya tələb olunan fəaliyyət növləri siyahısında sözügedən fəaliyyət üçün lisenziya nəzərdə tutulmayıb:

“Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsasları “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Lisenziya tələb olunan fəaliyyət növləri həmin Qanunun 1 və 2 nömrəli əlavələri ilə müəyyən edilir. Məlumat üçün qeyd edək ki, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən aparılan lisenziyaların və icazələrin vahid reyestrində “MehNur” adlı müəssisəyə hər hansı fəaliyyət növünə dair lisenziyanın verilməsi barədə məlumat qeydə alınmayıb”.

Səhiyyə Nazirliyindən verilən açıqlamada isə diqqətə çatdırılıb ki, psixoloji yardım, defektoloqlar, loqopedlər, praktik psixoloqların fəaliyyəti “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir: “Həmin Qanunun 21.0.3-cü maddəsinə əsasən, müraciətinizdə qeyd olunan ixtisaslar üzrə fəaliyyət həkimlər tərəfindən deyil, təhsilverənlər, pedaqoji işçilər - müəllimlər, məsləhətçilər, tərbiyəçilər, müəllim köməkçiləri, çağırışaqədərki hazırlıq rəhbərləri, defektoloqlar, loqopedlər, praktik psixoloqlar, sosioloq-pedaqoqlar, uşaq birliyi rəhbərləri, laborantlar, kitabxanaçılar, sosial xidmət sahəsinin işçiləri, təhsil müəssisəsinin dərnək və musiqi rəhbərləri, metodistlər, təhsil müəssisəsində çalışan konsertmeysterlər və məşqçilər, ümumi təhsil müəssisələrində pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan digər şəxslər tərəfindən həyata keçirilir”.

Təhsil Nazirliyindən isə bəyan edilib ki, “MehNur” loqopedik və psixoloji reabilitasiya mərkəzinin nazirliklə heç bir əlaqəsinin yoxdur. Həmin qurumlar özəl olaraq MMC kimi fəaliyyət göstərirlər.

### Paytaxda 100-dən artıq reabilitasiya mərkəzi var

**■ Mövzu ilə bağlı hafta.az-a danışan təhsil eksperti Elşən Qafarov bildirib ki, bəzi işbazlar qanunvericilikdəki mövcud boşluqlardan sui-istifadə edirlər:**

“Azərbaycanda sahibkarlıq müəssisələrinə lisenziya verilmir. Lisenziya hansısa fəaliyyəti həyata keçirmək üçündür. Bu tip qurumlar MMC formasında fəaliyyət göstərirlər. Sadəcə adi bir market açdığınız kimi yaxınlaşırsının ASAN xidmətə cüzi bir rüsum ödəməklə MMC yaradırsınız. Məsələn, bizdə fəaliyyət göstərən təhsil kursları, özəl bağçalar hamısı bu şəkildə fəaliyyət göstərirlər. Onların heç biri təhsil müəssisəsi deyil, kommersiya müəssisəsidir. Yəni, bu qədər sadə. Valideynlər ayıq-sayıq olmalıdırlar. MMC adı ilə fəaliyyət göstərən halhazırda təkcə Bakı şəhərində onlarla bağça, 100-dən artıq reabilitasiya mərkəzləri, kurslar var. Kimlər ki, uşağını MMC adı altında fəaliyyət göstərən bağçaya, hansısa kursa reabilitasiya mərkəzlərinə qoyur, onun məsuliyyətini də valideyn daşıyır. Valideyn özü övladını odun-alovun içinə atır. Amma bu zaman haqlı olaraq sual yaranır ki, bu qurumlara dövlətin nəzarəti olmamalıdırmı? Əlbəttə ki, aidiyyəti dövlət orqanları tərəfindən nəzarət vacibdir. Bu MMC-lərdə sanitar və epidemioloji vəziyyətin gözlənilib-gözlənilmədiyinə dair Gigiyena və Epidemiologiya Mərkəzi, fəaliyyətlərinin qanunvericilik çərçivəsində olub-olmamasına dair ərazidə olan hüquq-mühafizə orqanları nəzarət etməlidir. Amma onlar hər biri sahibkarlıq subyekti olduğu üçün həm də vergi ödəyicisidir və vergilərini də çalışırlar ki, vaxtında ödəsinlər”.

Bu tip müəssisələrdə işçilərin hansı kriteriyalarla işə qəbul edildiyinə gəlincə, ekspert vurğulayıb ki, bununla bağlı hərc-mərclik hökm sürür: “Təsəvvür edin, market işçini necə işə qəbul edirsə, bu MMC-lər də eyni prinsiplə işləyirlər. Yəni, o prinsiplə işə “mütəxəssis” götürülür. Əksəriyyətinin heç həmin sahə üzrə anlayışı, təhsili də olmur. Sadəcə, kimsə 3-4 rəfiqəsini və ya dostunu toplayır, görürlər ki, bu sahədə yaxşı qazanc var, MMC yaradıb “xidmət” göstərməyə başlayırlar. Təbii ki, vəziyyətdən çıxış yolları da var. Məsələn, biz xarici təcrübəni öyrənəndə görürük ki, adi repetitor fəaliyyəti ilə məşğul olmaq üçün dövlətin təhsil qurumundan lisenziya almaq lazımdır. Bunun üçün namizədlər xüsusi imtahan verməlidirlər, onların pzixoloji, təbii, mənəvi, pedoqoji bilikləri tələb olunan kriteriyala cavab verməlidir. Hesab edirəm ki, bizdə də bununla bağlı xüsusi normativ aktlar yaradılmalı və mövcud boşluqlar aradan qaldırılmalıdır”.

**■ Məsələyə münasibət bildirən psixoloq Elnur Rüstəmov da qeyd edib ki, Azərbaycanda reabilitasiya mərkəzlərinin fəaliyyətinə qanunvericilik hər hansı məhdudiyyət qoymur:** “Reabilitasiya mərkəzləri fiziki və yaxud hüquqi şəxs kimi İqtisadiyyat Nazirliyində qeydiyyatdan keçərək fəaliyyət göstərirlər. Bu mərkəzlərdə nitq qüsuru, eləcə də digər davranış pozuntuları olan uşaqlara reabilitasiya xidmətləri göstərilir. Yəni, reabilitasiya mərkəzləri bir növ özəl uşaq bağçaları, uşaq inkişaf mərkəzlərinin rolunu oynayır. Burada davranış pozuntusu olan uşaqların cəmiyyətə adaptasiyası üçün iş aparılır. Əgər reabilitasiya mərkəzində davranış pozuntusu olan, nitq qüsurlu uşaqlarla peşəkar iş aparılarsa, onların cəmiyyətə inteqrasiyası mümkündür. O ki, qaldı ”MehNur” reabilitasiya mərkəzində baş verənlərə, həmin uşaqla bağlı yanaşma kökündən səhv olub. Yayılan videoda döyülən




4 yaşlı Cavid Cəbrayılovun eşitmə qüsuru olub. Həmin uşaqla iş aparmaq üçün ilk növbədə körpədə eşitmə qüsuru aradan qaldırılmalıdır. Onun qulağına eşitmə cihazı yerləşdirildikdən sonra reabilitasiya tədbirlərinə başlamaq lazım idi. Heç nəyi eşitməyən uşaqda aqressiya olur. O deyilənləri eşidə bilmirsə loqopedin dediklərini necə təkrarlayacaq? Uşağı belə halda nəyisə təkrarlamağa məcbur etmək kökündən yanlışdır. Həmin uşaq ilk növbədə loqopedə yox, lora aparılmalıdır. Onun eşitmə qüsuru aradan qaldırıldıqdan sonra danışması üçün reabilitasiya kurslarına başlamaq olar”.

### İşçilər mütəmadi olaraq tibbi yoxlamadan keçməlidirlər

**■ Məsələnin hüquqi tərəflərinə gəlincə, hüquqşünas Sahib Məmmədov bizimlə söhbətində bildirib ki, bu sahədə nəzarət mexanizmləri mükəmməl deyil:**

“Nəzərə almaq lazımdır ki, indi özəl sektorda yoxlamaların aparılmasına məhdudiyyət qoyulub. Amma bu o demək deyil ki, onlar tam nəzarətdən kənar qalmalıdır. Məsələn, insan alveri, məişət zorakılığı ilə bağlı qeyri-dövlət sığınacaqlarının, mərkəzlərinin yaradılması üçün akkreditasiyadan keçmək lazımdır. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir. Müəyyən təhsil mərkəzləri, reabilitasiya mərkəzləri var ki, onlara da müvafiq icra hakimiyyəti orqanları, məsələn, Elm və Təhsil Nazirliyi nəzarət edə bilər və s. Bu tip mərkəzlərlə bağlı müvafiq normativlər var. Tutaq ki, binanın, ortaqların şəraiti, yataq yerləri, qidalanma, heyət və onlara dair tələblər olmalıdır. Məsələn, orada işləyən sosial işçilər, sosial xidmətçilər mütəmadi olaraq tibbi yoxlamadan keçməlidirlər, o cümlədən onların psixoloji durumları müəyyənləşdirilməlidir, infeksion xəstəliklərinin olub-olmaması yoxlanılmalıdır və s. Bütün bunlarla bağlı bəzən başdansovduluq olur və nəticədə də bu yaxınlarda yayılan videodakı hallar baş verir”.

### “Ciddi monitorinq sistemi qurulmalıdır”

**Ekspert vurğulayıb ki, baş vermiş hadisəyə görə, konkret uşaqlara əzab verməyə görə cinayət təqibi başlayıb:**

“Amma bu nəticədir. Səbəbləri aradan qaldırmaq üçün hesab edirəm ki, ciddi monitorinq sistemi qurulmalıdır. Lakin bu sistem də əlavə bürokratiyaya gətirib çıxarmamalıdır. Belə mərkəzlərin şəbəkəsi bizdə onsuz da azdır. Bürokratiyanı dərinləşdirməklə onların işini məhdudlaşdıra bilərik. Əksinə dövlət bu sahəni stimullaşdırmalıdır. Yerli hakimiyyət orqanları bununla bağlı sosial sifarişlər verməlidir. Eyni zamanda, sifarişi verən, maliyyələşdirən qurumlar bu mərkəzlərin üzərində nəzarət həyata keçirməlidir. Bununla bağlı xarici təcrübə çox yaxşıdır. Məsələn, mən Xorvatiya təcrübəsini qeyd edə bilərəm. Onlarda belə mərkəzlərin hər birini yerli hakimiyyət orqanları tender əsasında QHT-lərə təqdim edirlər. QHT-lər də bu prosesi təşkil edirlər. 3 ildən bir yenidən tender keçirilir və tenderi ya həmin QHT, ya da başqası udur. Və maliyyələşmədə stabillik davam edir və sifarişçi təşkilat da mərkəzə mütəmadi olaraq nəzarət edir. Hesab edirəm ki, Azərbaycanda da bu sistemi qurmaq lazımdır. Məsələn, bilirəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi özünə aid sahələrdə bu sistemi qurub, mütəmadi olaraq sosial sifarişlər verir, həmin sifarişlər əsasında qurulan mərkəzlərə nəzarət edir və s. Yəni, bu sahədə tamamilə nəzarətsizlik var desək, ədalətsizlik olar. Amma bu o demək deyil ki, orada nəsə baş verməyə bilər. Ona görə də mütəmadi olaraq ictimaiyyət, KİV nümayəndələri həmin yerlərə baş çəkməli, vəziyyətlə yerindəcə tanış olmalıdırlar”.

Hüquqşünas söhbət əsnasında uşaqlara əzab verən reabilitasiya mərkəzinin işçilərini gözləyən cəzaya da aydınlıq gətirib: “Cinayət Məcəlləsində döymə və əzab vermə ilə bağlı maddə var. Bu az ağır cinayətlər kateqoriyasına aiddir. Əgər döymə və əzab vermədə bədənə az ağır, ağır və yaxud da xüsusilə ağır xəsarət yetirilibsə, bu artıq başqa maddələrdir. Yəni, daha ciddi cəzalar nəzərdə tutulub. Amma bu hal az ağır cinayətlər kateqoriyasına aid olduğundan təqsirləndirilən şəxslərin barələrində qəti imkan tədbiri kimi həbs yox, ev dustaqlığı seçilməsi məntiqlidir. Lakin dediyim kimi məhkəmə işi araşdırmalıdır, döymə, əzab vermə ilə bağlı ayrıca cəza ola bilər. Eyni zamanda, məhkəmə tibbi ekspertiza yoxlaması nəticəsində uşaqlara dəymiş xəsarətin ağırlığına uyğun olaraq da əlavə cinayət təqibləri də ola bilər. Yəni, bu məhkəmənin işidir”.

### “Belə insanlara elə cəza verilməlidir ki”

**■ Məsələyə münasibət bildirən millət vəkili Məlahət İbrahimqızı isə deyib ki, “MehNur” reabilitasiya mərkəzində baş verənlər insanlıqdan uzaq bir hadisədir:**

“Bunu heç cinayət də adlandırmaq olmaz. Bunu ancaq insan olmayan biri törədə bilər. Yəni, məsum, gücsüz, xüsusilə də nəzərə alsaq ki, xəstə uşaqlara qarşı o cür işgəncələr törətmək hesab edirəm ki, qəbuledilməzdir, bağışlanılmazdır.

Bəli, bu gün Azərbaycanda bazar iqtisadiyyatıdır, hökümət özəl sahibkarlığın inkişafı ilə bağlı çox gözəl şərait yaradıb. Son vaxtlar ölkəmizdə psixoloji, eyni zamanda, digər bəzi xəstəliklərin reabilitasiyası ilə bağlı boşluqlar var idi. Və bu boşluqlardan istifadə edən heç bir peşəkarlığı, təcrübəsi olmayan müəyyən adamlar gəlir mənbəyi kimi belə mərkəzlər açıblar. Millət vəkili kimi hesab edirəm ki, istər Bakıda, istər bölgələrdə fəaliyyət göstərən bu tip özəl mərkəzlərin hər biri hərtərəfli şəkildə yoxlanılmalıdır. Həm İqtisadiyyat Nazirliyinin müvafiq qurumları, həm Səhiyyə Nazirliyi, eləcə də TƏBİB, eləcə də tutaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi ciddi araşdırma aparmalıdır. Belə mərkəzlərdə çalışanlardan eləsi var ki, heç təhsili yoxdur. İndi hansısa sertifikatı almaq çox asandır. İki gün kiminsə dərsində oturub hansısa “sertifikat” alırlar, heç ders aldıqlarının da düz-əməlli təhsili olmur.

Düşünürəm ki, bu məsələni də ictimaiyyət ciddi şəkildə nəzarətdə saxlamalıdır, ictimai qınaq çox sərt olmalıdır və belələrinə qarşı nə dözümlü, nə də güzəştli olmamalıyıq. Belə insanlara qarşı elə cəza verilməlidir ki, başqalarına da dərs olsun. Bu cür hallar bizim xalqımıza, dövlətimizə qarşı da çox yaxşı olmayan təəssürat yaradır”.

✍ Sevinc

> “Bu qurumlar necə və hansı formada fəaliyyət göstərirlər?
>
> Təsəvvür edin, market işçini necə işə qəbul edirsə, bu MMC-lər də eyni prinsiplə işləyirlər
>
> Uşağı belə halda nəyisə təkrarlamağa məcbur etmək kökündən yanlışdır
>
> Səbəbləri aradan qaldırmaq üçün hesab edirəm ki, ciddi monitorinq sistemi qurulmalıdır
>
> İstər Bakıda, istər bölgələrdə fəaliyyət göstərən bu tip özəl mərkəzlərin hər biri hərtərəfli şəkildə yoxlanılmalıdır

---



**■ “Son bir ay ərzində Bakıda məktəbəqədər təhsil müəssisələrinə 5122 uşaq elektron sistemlə qəbul olunub”.**

Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransında çıxışı zamanı deyib. O bildirib ki, idarənin tabeliyinə 348 bağça keçib: “Onlardan 8-nin fəaliyyəti dayandırılıb. Ümumi bağçalardan 264-ü körpələr evidir. Bağçalarda ümumilikdə 41 min 87 uşaq təlim-tərbiyəyə cəlb olunub, 4299 tərbiyəçi və müəllim məşğul olur”. M.Vəliyeva qeyd edib ki, 4 bağça əsaslı təmir olunub, 18 bağçada cari təmir işləri başa çatdırılıb.Bu da bağçalardakı sıxlığı aradan qaldırmağa kömək edəcək.



**■ Bakıda cinsi təcavüzlə üzləşdiyi bildirilən azyaşlı qız ev şəraitində uşaq dünyaya gətirib.**

Bu barədə Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə məlumat yayıb. O bildirib ki, dünən ev şəraitində 13 yaşlı qız uşaq dünyaya gətirib: “Xəstəxanaya yerləşdirilib. Doğulan uşaq sağdır, 13 yaşlı ana isə sığınacağımıza yerləşməyini xahiş edir”. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən hafta.az-ın sorğusuna cavab olaraq bildirilib ki, faktla bağlı araşdırma aparılır. Hadisənin Bakı şəhərinin Sabunçu rayonunda baş verdiyi bildirilir.

TƏBİB-dən verilən məlumata görə, hazırda ana və uşağın vəziyyəti stabildir, tibb müəssisəsində müalicələri davam etdirilir. Uşağın çəkisi 3 600 qramdır”.



**■ “Kazaxstan İnjinirinq” şirkəti Bakıda “ADEX 2022” dördüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi və “Securex Caspian” 13-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə sərgisində ən yeni müdafiə sənayesi məhsullarını təqdim edib.**

Təqdim olunan qurğular sırasında ”Leyla” adlı pilotsuz uçuş aparatı olub. Bu aparat aqrar və neft-qaz sənayesində, geologiya, monitorinq, axtarış və xilasetmə işlərində istifadə oluna bilər. PUA-ya ”Leyla” adı Azərbaycanın və Qafqazın ilk qadın pilotu Leyla Məmmədbəyovanın şərəfinə verilib. O, Böyük Vətən müharibəsi illərində dörd mindən çox pilot və desantçıya təlim keçib.



**■ Zəngilan rayonunda “ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsi başlayıb.**

Sentyabrın 7-də Abşeron rayonunun Masazır kəndindəki “Zəngilan” şəhərciyindən sayca beşinci köç karvanı yola salınıb. Xatırladaq ki, birinci mərhələdə 41 ailənin - 201 nəfərin ən müasir infrastrukturla təchiz olunmuş kəndə köçürülməsi təmin edilib. Hər biri ailəyə həyətyanı sahəsi olan fərdi ev verilib. Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında Dövlət Komitəsinin Repatriasiya Departamentində püşkatma ilə aparılıb.



**■ “Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin geniş müzakirəsi məqsədi ilə Milli Məclisdə ictimai dinləmələrin keçirilməsi nəzərdə tutulub.**

Parlamentdən hafta.az-a verilən məlumata görə, ilk ictimai dinləmənin cari ilin sentyabrın 28-də keçirilməsi gözlənilir. İctimai dinləmə zamanı səslendiriləcək fikirlər, o cümlədən irəli sürülcək təkliflər nəzərdən keçiriləcək. Milli Məclisin sədri Sahibə Qafarovanın tapşırığına əsasən, parlamentdə “Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması üzərində iş davam edir. Ölkəmizdə dövlət qeydiyyatına alınmış 39 siyasi partiya yeni qanun layihəsi ilə bağlı təkliflərini artıq Milli Məclisə təqdim edib.



**■ 25-28 yaşlı müəllimlərimizin hamısı sertifikasiyadan uğurla keçib. Bunu elm və təhsil naziri Emin Əmrullayev Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransında çıxışında deyib.**

O bildirib ki, əsas problemimiz 35-39 yaşdan başlayır. ”Düzdür hər bir yaşda səriştəli, bilikli müəllimlərimiz var. Məsələn 61 yaşdan yuxarı olub və 51 baldan yuxarı toplayan 184 müəllimimiz var”.

Nazir qeyd edib ki, 469 müəllim sertifikasiyada ”anbar”, ”şənbə” və ”pambıq” sözləri verilmiş test tapşırığında sözün düzgün yazılışını tapa bilməyib. Bu sertifikasiyada iştirak edənlərin 18 faizini təşkil edir. O vurğulayıb ki, bu tip hallar çoxdur.

# “Karantin qaydalarının tətbiqinə ehtiyac qalmayıb”

***Ölkədə koronavirusa yoluxanların sayı yenidən artır. Statistik məlumatlara nəzər yetirsək, gündəlik 400-500 civarında yeni yoluxma qeydə alınır. Yeni tədris ilinin başlamasına isə çox az vaxt qalır. Proqnozlara görə, payız və qış aylarında virusa yoluxma hallarının maksimum həddə çatacağı gözlənilir. Hətta sərt karantin rejiminin tətbiq edilə biləcəyi də istisna olunmur. Maraqlıdır, bu məlumatların doğruluq payı nə qədərdir? Yoluxanların sayının yenidən artması qapanmalara səbəb ola bilərmi? Mövzu ətrafında “Həftə içi” qəzetinin suallarını “Azərbaycan Həkimləri” İctimai Birliyinin sədr müavini, həkim-radioloq Aydın Əliyev cavablandırıb.***



**Aydın Əliyev,**
“Azərbaycan Həkimləri” İctimai Birliyinin sədr müavini, həkim-radioloq

## Müsahib

***- Aydın həkim, yeni tədris ilinin başlaması ilə əlaqədar koronavirusa gündəlik yoluxanların sayında yenidən kəskin artım ola bilərmi?***

- Bugünkü “COVID-19” mutasiyası adicə qrip kimi bir şeydir. Heç bir təhlükəsi yoxdur. Çox xahiş edirəm, bunu cəmiyyətə çatdırın. 85-90 yaşında xəstələr tanıyıram ki, bu virusa yoluxub, yüngül keçirib və sağalıb. Heç bir ağırlaşma vermir. Ölüm sayı sıfırdır. Yəni, böyük əksəriyyət indi xəstəliyi çox yüngül keçirir. Əgər birinin dördüncü mərhələ onkoloji xəstəliyi varsa, birinə orqan köçürülüb immun sistemi zəifləyibsə, birinin ağırdərəcəli qaraciyər, böyrək, ürək çatışmazlığı varsa, bunları nəzərdə tutmuram. Böyük əksəriyyət üçün virus təhlükəsi yoxdur. Bunu deməkdə məqsədim odur ki, yoluxma sayı gündəlik 20 minə belə çatsa, heç bir təhlükəsi yoxdur. Məncə, bundan sonra karantın qaydalarının tətbiqinə və sərtləşdirilməsinə ehtiyac duyulmur. Karantini sərtləşdirib insanları cərimələyib onların əsəbləri ilə oynamağa ehtiyac yoxdur. Boş səbəblərdən insanları cərimələməsinlər. Hazırda insanların maddi-iqtisadi

*Yoluxmalar gündəlik 20 minə çatsa belə, heç bir təhlükəsi yoxdur*

durumu yaxşı deyil. Bütün ərzaq və qeyri-ərzaq məhsullarının qiyməti qalxıb. İnsanlar evlərinə bazarlıq etməyə çətinlik çəkirlər. Bütün ailələr stresdədir. Valideyn bu gün fikirləşir ki, uşağıma paltar, çanta, qələm, dəftər alıb məktəbə göndərməyə imkanım yoxdur. Bu qədər stresin içində olan əhalimizə əlavə yersiz olaraq belə problemləri yükləməyin məntiqi varmı? Başı çıxan varsa, bununla bağlı danışsın, başı çıxan yoxdursa lütfən, sussun. Düzdür, 2 il bundan əvvəl bu virusun müəyyən aktivliyi var idi. Amma “COVID-19” la bağlı 2 il bundan qabaqkı bigimizlə bugünü şərh ediriksə, biz cəmiyyətimizə qarşı xəyanət etmiş oluruq. Belə olmaz. Pandemiya başlayanda mən hamıdan çox car çəkənlərdən biri idim ki, “Evdə qal”, “Maska tax”, “Gigiyena qaydalarına riayət et” və s. O vaxt həqiqətən də bu virus təhlükəli idi, biz virusu tanımırdıq, yüngül mutasiyalar yox idi. Lakin bu gün durum tam fərqlidir. Dünya hər an dəyişir. Biz 2 il yarım bundanönçəki durumla indiki vəziyyəti qarşılaşdıra bilmərik. Ona görə də həmkarlarıma bir daha müraciət edirəm ki, bugünkü bilgilərlə davranmaq lazımdır. Yəni, insanların panikaya düşməsinə heç bir əsas yoxdur.

***- İnsanlar bu xəstəliyə əvvəlki kimi həssas yanaşmırlar. Yəqin, siz də müşahidə edirsiniz ki, qapalı məkanlarda maska taxanların sayı çox azdır, məsafə saxlanılmır və s. Sizcə, bu məsələdə insanlar necə davranmalıdırlar?***

- Bu məsələdə məcburiyyətə heç bir ehtiyac yoxdur. Virus dəfələrlə mutasiyaya uğrayıb və zəifləyib, öldürə bilmir, ağır fəsadlar yaratmır. Əksinə, orqanizm üçün xeyirli hala gəlib.

Yoluxduğumuz halda immunitetimiz inkişaf edir. Bu cür viruslar immunitetimizi məşq etdirir. Təbii ki, təhlükəli həddə qorunmaq lazımdır. Bu gün COVID-in qorxusu yoxdur. Maska, məsafə və s. bunların hamısı könüllü olmalıdır. Kim istəyir maska taxsın, kim istəyir taxmasın.

***- Bu virusun yeni ştamlarının yaranma ehtimalı nə qədərdir?***

- Təbii ki, yeni ştamlar yaranacaq və virus daha da yüngülləşəcək.

***- Son olaraq Azərbaycanda aparılan peyvəndləmə prosesini necə qiymətləndirirsiniz? Bu proses davam etməlidirmi?***

- Bizdə kifayət qədər peyvəndləmə aparılıb. Bundan sonra proses könüllü olmalıdır. Pasport tələbi də ləğv olunmalıdır. Buna da heç bir ehtiyac yoxdur.

***Sevinc***

# Siyasi partiyalarla bağlı yeni tələblər müəyyənləşir

**Azərbaycanda siyasi partiyanın təsis edilməsinə dair yeni tələblər müəyyənləşir. Bununla bağlı məsələ “Siyasi partiyalar haqqında” qanunun ilkin variantında əksini tapıb. Layihəyə əsasən, siyasi partiya Azərbaycan Respublikasının ərazisində son 20 il daimi yaşayan Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 200 vətəndaşı (təsisçilər) tərəfindən təsis edilir.**



Siyasi partiyanın təsis edilməsi məqsədilə təsisçilər təsis yığıncağını keçirirlər. Təsisçilərin siyasi partiyanın təsis yığıncağında nümayəndə vasitəsilə iştirakına yol verilmir. Təsis yığıncağında siyasi partiyanın nizamnaməsi və proqramı qəbul olunur, təmsilçilik məqsədilə təsisçilər sırasından səlahiyyətli şəxs müəyyən edilir. Siyasi partiyanın nizamnaməsində və proqramında çatışmazlıqlar aşkarlanarsa təsis yığıncağında həmin sənədlərdə müvafiq dəyişikliklər edilir.

Siyasi partiyanın təsis yığıncağının nəticələri protokolla rəsmiləşdirilir. Təsis yığıncağının protokolunda, o cümlədən təsisçilərin və səlahiyyətli şəxsin adı, soyadı, atasının adı, həmçinin fərdi identifikasiya nömrəsi, doğulduğu tarix, qeydiyyat ünvanı və əlaqə telefon nömrəsi göstərilir.

Təsis yığıncağının keçirildiyi tarixdən 30 gün müddətində siyasi partiyanın səlahiyyətli şəxsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ərizə ilə müraciət edərək təsis yığıncağının protokolunu, partiyanın nizamnaməsini və proqramını təqdim edir.

Ərizə siyasi partiyanın səlahiyyətli şəxsi və digər təsisçilər tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ərizənin daxil olduğu tarixdən 30 gün müddətində sənədlərin qanunun tələblərinə uyğunluğunu yoxlayır. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, ərizənin daxil olduğu tarixdən 15 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onların aradan qaldırılması barədə məlumatı siyasi partiyanın səlahiyyətli şəxsinə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir, həmçinin bu qanunun tələbinə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bu Qanunda nəzərdə tutulmuş məlumat daxil olduqdan sonra siyasi partiyanın səlahiyyətli şəxsi sənədlərdə aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün 30 gün müddətində tədbirlər görür və ərizə ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Ərizə siyasi partiyanın səlahiyyətli şəxsi və digər təsisçilər tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ərizənin daxil olduğu tarixdən 30 gün müddətində bu barədə məlumatı siyasi partiyanın səlahiyyətli şəxsinə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Qanunda nəzərdə tutulmuş məlumat daxil olduğu tarixdən 90 gün müddətində siyasi partiyanın səlahiyyətli şəxsi siyasi partiya üzvlərinin bu Qanunda nəzərdə tutulmuş sayının (Dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 10000 üzvü olmalıdır) təmin edilməsi üçün tədbirlər görür və üzvlərin reyestrini tərtib edir.

Qeyd edək ki, hazırda qüvvədə olan qanuna görə, siyasi partiya təsis qurultayının keçirilməsi, həmin qurultayda siyasi partiyanın nizamnaməsinin və proqramının qəbul olunması, rəhbər və nəzarət-təftiş orqanlarının formalaşdırılması yolu ilə təsis edilir. Siyasi partiyanın təsis qurultayının hazırlanması, çağırılması və keçirilməsi siyasi partiyanın təşəbbüsçülərinin yaratdığı təşkilat komitəsi tərəfindən həyata keçirilir.

Azərbaycanda siyasi partiyanın ləğvi üçün yeni qayda müəyyənləşib.

Qeyd olunub ki, siyasi partiya bu Qanunla və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda siyasi partiya qurultayının və ya məhkəmənin qərarı əsasında ləğv edilə bilər.

Siyasi partiyanın ləğvi barədə siyasi partiyanın qurultayının qərarı siyasi partiyanın nizamnaməsində nəzərdə tutulmuş qaydada qəbul edilir.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı hallarda siyasi partiyanın ləğvi barədə apellyasiya məhkəməsində iddia qaldırır:

- siyasi partiya bu Qanunun 4.3-cü maddəsinin tələblərini pozduqda;
- bu Qanunun 7.3.2-ci, 8.8-ci və 30.6-cı maddələrində nəzərdə tutulmuş hallarda;
- fəaliyyəti dayandırılmış siyasi partiya bu Qanunun 4.13-cü maddəsinin birinci cümləsinin tələblərini pozduqda;
- Milli Məclisin deputatlarının, Azərbaycan Prezidentinin və ya bələdiyyə seçkilərində ardıcıl olaraq 2 dəfə iştirak (qeydə alınmış namizədin seçkilərdə bilavasitə iştirakı formasında) etmədikdə.

Siyasi partiyanın ləğvi barədə apellyasiya məhkəməsinin qərarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) iddiası əsasında Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq qəbul edilir.

Siyasi partiyanın ləğvi barədə qeyd hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi tarixdən 3 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyanın ləğvi barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır. Siyasi partiyanın ləğvi ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

***Azad***

## Təhsil

***Məlum olduğu kimi, bu il ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edən 66 724 nəfərdən 48 841 nəfəri (o cümlədən 4 927 subbakalavr) tələbə adını qazanıb. 23 044 (o cümlədən 253 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 25 797 (o cümlədən 4 674 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Eyni zamanda, bu il 1 nəfər beynəlxalq fənn Olimpiadası, 46 nəfər respublika fənn olimpiadası, 83 nəfər beynəlxalq idman yarışlarının qalibi olduğu, 22 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (IB Diploma Programme) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib.***



# Xüsusi təyinatlı ali məktəblər

Bundan əlavə, 192 abituriyent SAT imtahanının nəticələrinə əsasən, 190 abituriyent isə ADA məktəbinin məzunu kimi ADA Universitetinə qəbul olunub. Həmçinin, I ixtisas qrupu üzrə 135 abituriyent Azərbaycan-Fransız Universitetinə (UFAZ), 116 abituriyent Koreya Respublikasının İNHA Universitetinin mühəndislik ixtisasları istiqaməti üzrə bakalavriat səviyyəsində beynəlxalq İkili Diplom Proqramı çərçivəsində Bakı Mühəndislik Universitetinə, IV ixtisas qrupu üzrə 125 abituriyent İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına, 65 abituriyent (I-IV ixtisas qrupları üzrə) M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul olunub.



**Yeri gəlmişkən...**

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə aşağıdakılar aiddir:

1. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
2. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
3. Daxili İşlər Nazirliyinin Polis Akademiyası
4. Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbi
5. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası
6. Fövqəladə Hallar Nazirliyinin Akademiyası
7. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası

Bəs, görəsən, bu gün abituriyentlərin xüsusi təyinatlı ali təhsil müəssisələrinə marağı nə dərəcədədir? Daha çox hansı xüsusi təyinatlı təhsil müəssisəsinə maraq böyükdür? Bu müəssisələrə keçid balları necə dəyişir və qız abituriyetlərin bu müəssisələrə marağı varmı? İldə təxminən neçə abituriyent xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul olur?

■ **Mövzu barədə hafta.az-a danışan təhsil eksperti Elçin Əfəndi bildirib ki, son illər abirutiyentlər xüsusi təyinatlı ali təhsil müəssisələrinə böyük maraq göstərirlər:**

Bu gün bizdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbi, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası və Dövlət Gömrük Komitəsinin Akademiyası xüsusi təyinatlı ali təhsil müəssisələri statusunu daşıyırlar. Abituriyentlər Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasına, Daxili İşlər Nazirliyinin Polis Akademiyasına böyük maraq göstərirlər. Bunlarla paralel olaraq, abituriyentlər seçim zamanı Fövqəladə Hallar Nazirliyinin Akademiyasına və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə üstünlük verirlər. Bu müəssisələrə qəbul olan abituriyentlərin sayında da son illər kəskin artım müşahidə olunur. Balların formalaşmasına gəlincə, bu müəssisələrə qəbul olan abituriyentlərin balı əsasən 450-dən yuxarı, bəzi ixtisaslar üzrə hətta 550 baldan yüksək olur. Amma il ərzində konkret neçə məzunun bu müəssisələrə qəbul olduğu rəsmi olaraq açıqlanmır”.

*Əksər hallarda qızlar həmin normativləri yerinə yetirə bilmirlər*

Ekspert vurğulayıb ki, bu təhsil müəssisələrinə qəbul olan əsas kontingent sayı oğlanlar olsa da, qız abituriyentlərin də xüsusi təyinatlı ali təhsil müəssisələri marağı var: “Qız abituriyentlər maraq göstərirlər. Amma qəbul olanların sayı çox olmur. Çünki həmin məktəblərə qəbul olmaq üçün xüsusi normativlər var ki, əksər hallarda qızlar həmin normativləri yerinə yetirə bilmirlər”.

■ **Yeri gəlmişkən, bu yaxınlarda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə də jurnalistlərə açıqlamasında deyib ki, xüsusi təyinatlı ali təhsil müəssisələrinə maraq artıb.** O, xüsusi təyinatlı ali məktəblərə keçid balları və neçə nəfərin qəbul olunduğu barədə məlumatı açıqlaya bilməyəcəyini qeyd edib. Amma DİM sədri bununla yanaşı bildirib ki, III qrupa imtahan verən istedadlı gənclər həmin məktəbləri seçirlər: ”Orada əsas kontingent 500 baldan yuxarı nəticə göstərən oğlanlardır. Heç kimi məcburi hansısa ixtisasa göndərmək olmaz. Onlar öz sahələrini istəyərək seçirlər. Ali hərbi məktəblərdə də oxumaq istəyən kifayət qədər yüksək bal toplamış abituriyentlər var. Bu cür vacib ixtisaslara savadlı insanların maraq göstərməsi müsbət haldır”.

***Sevinc***

# Hindistana getmək istəyən azərbaycanlılar çoxdur

***Son vaxtlar Azərbaycanla Hindistan arasında iqtisadi-ticarət əlaqələri sürətlə genişlənməkdədir. Ölkələrimiz arasında birbaşa hava reysinin açılmasının isə bu əlaqələrə daha güclü təkan verəcəyi qaçılmazdır. Hər il ölkəmizdə təşkil olunan Hindistan məhsullarının sərgisi, çox sayda mədəni tədbirlər, ticarətin həcminin yüksəlməsi kökləri qədim dövrlərə gedən Azərbaycan-Hindistan əlaqələrini arzulanan səviyyədə saxlayır. Özü də əlaqələrin inkişafında yalnız dövlət strukturları deyil, ayrı-ayrı işadamları da mühim rol oynamaqdadır.***



**Maneş Şah,**
“Discover Azerbaijan” və “Walk Abaut Grup” şirkətlərinin rəhbəri

## Sərgi

Bunlardan biri də hindistanlı işadamı, “Discover Azerbaijan” və “Walk Abaut Grup” şirkətlərinin rəhbəri cənab Maneş Şahdır. Cənab Şahla Hindistan məhsullarının Bakıda təşkil olunmuş sərgisində ayaqüstü söhbətləşib, ölkələrimiz arasında gördüyü və görəcəyi işlər barədə məlumat almağa çalışdıq. “Bir neçə ildir Hindistandan Azərbaycana turist gətirməklə məşğulam. Bilirsiniz, hind turistlərin timsalında Azərbaycana gələn hər bir qonaq ölkəniz üçün yaxşı qazanc mənbəyidir. Onlar otellərdə qalır, restoranlarda yemək yeyir, nəqliyyatdan istifadə edir, alış-veriş edir və sair. Bütün bunların qarşılığında isə Azərbaycana valyuta qazandırılır. Biz bu prosesi 2020-ci ilin mart ayınadək davam etdirdik. Çox təəssüf ki, koronavirus pandemiyasının yayılması işlərimizi bir müddət dondurdu” deyən cənab Maneş qeyd etdi ki, amma indi işini yenidən qurarkən məkan dəyişikliyi edib. Belə ki, hardasa 7 aydır Bakıdadır. Bayaqdan turist qruplarını birbaşa Hindistandan toplayıb gətiridisə, indi Azərbaycanda yerləşməklə, ölkəsindən hind turistləri cəlb edirlər”.

Müsahibimiz deyir ki, koronavirus qadağaları aradan qalxdıqdan sonra sərhədlərin açıldığını görüb yenidən fəaliyyətini bərpa edib. Ötən aylar ərzində Hindistandan Azərbaycana çox sayda turist gətirə bilib. Onların arasında biznes nümayəndələri də olub, mədəniyyət xadimləri də, sadəcə gəzib-görmək istəyən səyahətçilər də:

“Bir ölkədən başqa bir ölkəyə turist cəlb etmək çox yaxşı, amma onları yerləşdirmək və qayğısına qalmaq da lazımdır. Məsələn, onları yerləşdirmək, qidalandırmaq, gəzintilərini təşkil eləmək və sair. Maraqlıdır, cənab Şah bütün bunları qaydasına qoymaq üçün yerli təşkilat və şirkətlərlə əməkdaşlıq edirmi? Deyir ki, bəli. Bakıda təsis etdiyi “Discover Azerbaijan” şirkəti bu prosesi tənzimləməklə məşğuldur. Azərbaycanda bir sıra otellərlə, səyahət agentlikləri və sairlə əməkdaşlıq barədə müqavilə də imzalayıblar”.

Maneş Şah deyir ki, azərbaycanlılar arasında Hindistana getmək istəyənlər çoxdur, amma təəssüf ki, onun şirkətinin əsas işi Azərbaycandan Hindistana deyil, əksinə, Hindistandan Azərbaycana turist gətirməkdir. “Hindistanın özündə də Azərbaycanı gəzib-görmək istəyənlərin sayı kifayət qədərdir. Təsəvvür edin ki, bir həftə ərzində Hindistandan Azərbaycana 600 turist gətirə bilmişəm. Amma bu rəqəm bizi kifayətləndirə bilməz. Çalışacağam ki, daha çox hindistanlı Bakı şəhərini və Azərbaycanın digər əsrarəngiz bölgələrini gəzib-görmək şansı qazansınlar”, - Şah bildirir.

Ofisi Bakıda yerləşən bir şirkət əhalisinin sayı baxımından dünyanın ikinci ən böyük ölkəsindən bu qədər insanı necə cəlb edib Azərbaycana? Cənab Şah deyir ki, çox asan. Onun yaxşı komandası var, bu işdə əllərindən gələni edirlər. Əlavə olaraq, mediaqrup da təsis edib ki, orada sırf təbliğat-təşviqat işləri aparılır.

Səfər edəcək turistlərə Azərbaycanın görməli yerlərini özündə cəmləyən turpaket təqdim olunur. “Onlar daha çox Bakını gəzib-görmək istəyirlər, xüsusilə də şəhərin mərkəzini, “Torqovı” kimi tanıdığımız məşhur Nizami küçəsini. Əyalətlərə də aparırıq. Məsələn, Şəkidə, Quba və Qəbələ rayonunda olublar. Onu da unutmayaq ki, bura gələn hər bir turist həm də Azərbaycanın Hindistanda təbliğatçısıdır. Onlar vətənə qayıdandan sonra gəzib-gördüyü yerlər, xidmət və qonaqpərvərlik haqda danışacaqlar və beləliklə, insanlarda Azərbaycan haqqında təsəvvür yaradacaqlar” deyən cənab Maneş Şah əlavə edib ki, sentyabr və ya oktyabr ayı ərzində “Miss İndia 2018” gözəllik yarışmasının qalibi olmuş Hindistan gözəli Suman Çellani Azərbaycana gələcək. “Onun Azərbaycana səfərini təsadüfi təşkil etmədik. Xanım Sumanın çox böyük izləyici kütləsi var. Onun Bakıdan paylaşımları əsl bomba effekti yaradacaq və nəticədə Azərbaycanı görmək istəyənlərin sayı artacaq. Bu da dolayısı ilə, bayaq dediyim kimi, Azərbaycanın turizm sektoruna valyuta qazandıracaq”, - müsahibimiz deyir.

Müsahibimiz daha sonra vurğulayır ki, Hindistan çox böyük olduğundan turistləri hələlik iki bölgədən cəlb edirlər. Bunlar əsasən Qucarat ştatı və Munbay şəhəridir. Paytaxt Dehlidən də gəlirlər, amma sayları azdır.

Cənab Şah onu da əlavə edir ki, bu bölgələrdən gələn turistlər, həm də zəngin insanlardır. Yəni maddi imkanları olduğu üçün gəzib-görmək istəyirlər və bütün hallarda onlar həm də Azərbaycanın Hindistanda təbliğatçısı olurlar.



“Müasir zamanda turizm dünyada ən inkişaf edən və daha çox gəlir gətirən sənaye sahəsi və ya biznesdir. Bizim şirkət də bu biznesdə iştirak edir və təbii ki, qazancı var. Amma əsas qayəmiz Hindistandan Azərbaycana daha çox turist gətirməkdir. Bu ilin sonunda - dekabrda investisiya konfransı təşkil etmək fikrimiz var. Turizm sektorunun inkişafında iştirak etmək, məsələn, otel, restoran və sair sahələrə investisiya qoymaq istəyən hər bir iş adamı həmin tədbirə dəvət olunacaq”, - deyən cənab Şah onu da bildirib ki, tədbirə Azərbaycanla yanaşı həm də Hindistandan və Böyük Britaniyadan hind əsilli iş adamları dəvət olunacaqlar.

Cənab Şah eyni zamanda, Hindistanın turizm səfiri olan, tanınmış aktrisa Bakti Kubavatın da Azərbaycana səfər edəcəyini bildirib.

Müsahibimiz onu da əlavə edir ki, o, bütün bu işləri şirkət olaraq özü edir. Amma əlbəttə, Hindistanın Azərbaycandakı Səfirliyi ilə də əməkdaşlığı var.

Hindistan dünyanın ən qədim tarixə və zəngin mədəniyyətə sahib ölkələrindəndir. Belə bir ölkədə doğulub-böyümüş insanlar Azərbaycandan qayıtdıqdan sonra daha çox nələri danışırlar, ölkəmizdə ən çox nələr onların diqqətini çəkir və sair. Maneş Şah deyir ki, Azərbaycan mətbəxi çox cəlbedicidir və birmənalı olaraq hind turistləri özünə çəkir. Azərbaycan milli yeməklərindən plov, dolma, balıq, kabab və sairi çox sevirlər. “Hər şey yaxşıdır, amma hind turistlərə yeganə çətinlik yaradan amil Azərbaycanda insanların ingilis dilini az bilməsidir. Yəni getdikləri bəzi bölgələrdə bu dili ya heç bilən olmur, ya da çox az adam danışır deyə, ünsiyyət qurmaqda çətinlik çəkirlər. Hesab edirəm ki, turizmin inkişafı ilə paralel olaraq yaxın gələcəkdə Azərbaycanda ingilis dilinə də maraq artacaq”, - Maneş Şah əlavə edir ki, o özü də hazırda Azərbaycan dilini öyrənir.

Cənab Şah çox təəssüflə qeyd edir ki, bu gün Hindistanda, o cümlədən təmsil etdiyi Qucarat kimi iri ştatda Azərbaycan haqqında çox az bilirlər. Bilənlər də ki, əsasən siyasətçilərdir, ya da oliqarx həyatı yaşayanlar. “Bu çatışmazlığı aradan qaldırmaq üçün gediş-gəlişi artırmaq mütləqdir. İnsanlar nə qədər çox gedib-gəlsələr, ölkələri də bir o qədər yaxşı tanıyarlar. Bayaq da dedim: məsələn, Hindistandan gələn hər bir turist qayıdandan sonra öz yaxınlarına, dost-tanışlarına, iş yoldaşlarına burada gördüklərini danışacaqlar. İnternet dövrüdür, çəkdikləri videoları, şəkilləri sosial şəbəkələrdə paylaşacaqlar və beləliklə, Azərbaycan Hindistanda təbliğ olunacaq ki, bu da daha çox insanın Bakıya gəlməsinə maraq yaradacaq”, - Maneş Şah deyir.

*✍ Vüsal Tağıbəyli*

## HƏFTƏ REYTİNQ

### Həftənin ŞAİRİ



Baş Prokurorluğun yaydığı məlumatda ”Tərtər işi” ilə bağlı həbs edilənlər arasında Rahib Ramazan oğlu Məmmədovun da adı var. Şair kimi də tanınan Rahib Məmmədov (Rahib Bəşər) 1987-ci ildə Bakı şəhərində anadan olub. Odlar Yurdu Universitetində beynəlxalq hüquq ixtisası üzrə ali təhsil alan Rahib Bəşər ədliyyə mayoru rütbəsində, hərbi hüquqşünas kimi cəbhə zonasında dislokasiya edilmiş hərbi hissədə xidmət edib. Rahib Bəşər imzası ilə tanınan şəxs 8 kitabın müəllifidir. O, Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Qızıl Qələm” mükafatı və “Azərbaycan Bayrağı” ordeninin laureatıdır.

### Həftənin İŞSİZİ



İbrahim Həsən oğlu Cəfərov Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru vəzifəsindən azad edilib. Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb. İ.Cəfərov 2013-cü ildən ADAU-nun rektoru idi.

### Həftənin BAŞ NAZİRİ



Böyük Britaniya kraliçası II Yelizaveta Liz Trassı Balmoral qəsrində qəbul edib və onu ölkənin yeni Baş naziri təyin edib. Bununla da, Trass kraliçanın təyin etdiyi 15-ci Baş nazir olub. Boris Conson onun iştirakı ilə baş verən qalmaqallar fonunda iyulun 8-i Mühafizəkarlar partiyasının lideri və Baş nazir vəzifəsindən istefa verməyə razı olduğunu bildirib. O, Mühafizəkarlar partiyasına yeni lider və Baş nazir seçilənə qədər səlahiyyətlərini icra edəcəyini açıqlamışdı. Ölkənin xarici işlər naziri Liz Trass sentyabrın 5-i sözügedən partiyanın yeni lideri və ölkənin Baş naziri seçilib.

### Həftənin GECİKƏNİ



Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan Varşava hava limanında təyyarəyə buraxılmayıb. Bu barədə məlumatı Akopyan öz sosial şəbəkə hesablarında paylaşıb. Onun sözlərinə görə, Akopyan Cenevrə şəhərinə uçmalı olan reysə gecikib və bu səbəbdən təyyarəyə buraxılmayıb.

### Həftənin BƏYANATI



“İlin sonuna qədər Azərbaycanla sülh sazişi imzalanmalıdır”. Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Kommunist partiyasının deputatları ilə keçirdiyi qapalı görüşdə deyib. Erməni politoloq Andranik Ovannisyanın məlumatına görə, Nikol Paşinyanın fərmanı ilə ölkənin Xarici İşlər Nazirliyində Azərbaycanla hərtərəfli sülh sazişinin imzalanmasına hazırlıqla məşğul olan İşçi Qrup yaradılıb. O bildirib ki, sazişin imzalanması tarixi ilə bağlı dəqiq məlumat olmasa da, saziş cari ilin noyabrında baş tuta bilər.

### Həftənin TƏHQİRİ



Rusiyalı teleaparıcı Vladimir Solovyov rus estradasının primadonnası Alla Puqaçovanın ölkə xaricindən Rusiyaya qayıtmasından qəzəblənib. O, “Polnıy kontakt” proqramının efirində bunları deyib: “Niyə bütün bu zibili Rusiyaya geri daşıyırsınız? Hansısa Puqaçova geri dönüb. Ayaqla “Rolls-Royce”un qapısını açır. Bizi yenə öyrətmək üçün? Bəli, xalq onun haqqında nə düşündüyünü dedi. Ümumiyyətlə, kim qərara gəlib ki, əgər insan nə vaxtsa dahi idisə, onun dahiliyi tarixin ən vacib anlarında susmaqla təsdiqlənir”.

*✍ Azad Əliyev*

## ELAN

**Açıq hərrac:** Hərracı keçirən “Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 16.09.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: “Sabunçu Elmi İstehsalat Birliyi” TASC-yə məxsus 04/1 Lot üzrə İlmetsan qaldırıcı kran 1 ədəd 19440 man., 04/2 Lot üzrə 2 ədəd hava tutumu B-25 (v-8, 0m3) 1 ədəd 2520 man., üm/qiy: 5040 man., 04/3 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 10 ton)-13680 man., 04/4 Lot üzrə 3 ədəd körpülü kran KME (yük/q 5 ton) 1 ədəd 10800 man. üm/qiy: 32400 man., 04/5 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 7ton) 12960 man., 04/6 Lot üzrə 1 ədəd çatmalı kran KK-5(yük/q 5 ton) 16560 man.., 04/7 Lot üzrə 5 ədəd sınaq stendi 1 ədəd 252 man., üm/qiy: 1260 man., 04/8 Lot üzrə 2 ədəd metal əridmə sobası 1 ədəd 12240 man., üm/qiy: 24480 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: “Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100-000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən “Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi” MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra şöbəsi. Hərrac 16.09.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 05/1 Lot üzrə Abdullayev Şahmar Rəcəb oğluna məxsus Bakı şəh., Sabunçu ray., Ramana qəs., E.Məhərrəmli küç., dalan 6, ev 2, mənzil 12 (2 mərtəbəli binanın 2-ci mərtəbəsi, 3 otaq, üm/s 52,75 kv.m, təmirliliyi orta) - 25200 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: “Expressbank” ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

## GÜNÜN FOTOSU




**Tarixi binadan reklam lövhələri söküldü**

## “Azərbaycan dünya birliyinə uğurla inteqrasiya edir

**Tahir Rzayev,**
Milli Məclisin deputatı

Azərbaycan dünyanın ən böyük hərəkatlarından biri olan Qoşulmama Hərəkatı ilə də fəal əməkdaşlıq edir. ▸▸ Səh. 4

## STATİSTİKA



**■ Ötən il Bakı şəhərində 11 məktəb direktoru işdən çıxarılıb, 34-ü intizam məsuliyyətinə cəlb olunub, 33-nə isə xəbərdarlıq edilib.**

Bu dövrdə 56 direktor müavini işdən çıxarılıb, 10 müavinə isə xəbərdarlıq edilib. Ötən tədris ilində Bakıda 39 direktor işə qəbul olunub. Onlardan biri şəhid və ya qazi ailələrinin üzvü olub. 113 direktor müavini və 2550 müəllim işə götürülüb.



▸▸ Səh. 7

## “Karantin qaydalarının tətbiqinə ehtiyac qalmayıb”